24_27 IYUl-QARA.qxd 7/2/2026 10:52 PM Page 1


# UNİKAL

№24 (2304) 3 iyul 2026-cı il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az




# Sənədsiz evlərin rəsmiləşdirilməsi gecikdirilir:

## Büdcəni yüz milyonlarla manatdan məhrum edən məmurlar




Səh.5

## Hamı İrəvanda gözləyirdi, əvvəlcə Bakıya gəldi - Aİ-nin gizli mesajı

*Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin 2026-cı il iyulun 1-də Azərbaycana etdiyi səfər təkcə ikitərəfli münasibətlər baxımından deyil, həm də Avropa İttifaqının Cənubi Qafqaz siyasətində dəyişən prioritetlərinin göstəricisi kimi qiymətləndirilə bilər. Səfərin ən diqqətçəkən məqamlarından biri onun marşrutu oldu. Əvvəlcə Ermənistana, daha sonra isə Azərbaycana səfər edəcəyi gözlənilən Avropa Komissiyası Prezidenti ilk olaraq Bakını seçdi. Bu qərar təsadüfi diplomatik detal deyil. Əksinə, Avropa İttifaqının regionda siyasi bəyanatlardan daha çox strateji maraqlara əsaslanan siyasət yürütməsinin növbəti nümunəsidir. Son illər Avropa İttifaqının enerji siyasəti ciddi transformasiya mərhələsinə daxil olub.*

Səh.7

## "Həkimlərin böyük hissəsi iri şəhərlərdə cəmləşir"



*Milli Məclisin Səhiyyə komitəsinin üzvü, deputat Müşfiq Məmmədli "Unikal"a müsahibə verib. O, "Psixiatriya yardımı haqqında" qanuna dəyişikliyin əsas mahiyyətindən, regionlardakı həkim çatışmazlığından, regionlarda 65 yaşı tamam olan həkimlərin peşə fəaliyyətini davam etdirməsinin əhəmiyyətindən...*

Səh.4

## "Güclü tərəfdaşlıqlar da eyni dərəcədə vacibdir" - Orxan Məmmədov



*Hazırda Cənubi Qafqaz regionunda vençur kapitala və mələk investisiyalara ehtiyac var. Bunu İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov Qara Dəniz Ticarət və İnkişaf Bankının Rəhbərlər Şurasının 28-ci İllik Toplantısı...*

Səh.8

## Hacıbala Abutalıbov müəmması



*Media və sosial şəbəkələrdə Bakı Şəhər İcra Hakimiyyətinin sabiq başçısı Hacıbala Abutalıbov barəsində müxtəlif iddialar yenidən gündəmə gəlib. Sabiq merin uzun müddətdir məskunlaşdığı Qax rayonunun Ağçay kəndindən sakinlər tərəfindən qovulması, həmçinin səhhətində yaranan ciddi...*

Səh.7

# Ofelya Şabanova: "Şou-biznesdə anlaşılmazlıqlar və qalmaqallar yaşansa da..."



***Müğənni Ofelya Şabanova qardaşının vəfat etdiyi günlərlə bağlı səmimi açıqlamaları ilə diqqət çəkib.***

Milli.Az-ın məlumatına görə, sənətçi "Tağı ilə Xəbər Magazin" Youtube verilişində bildirib ki, yaşadığı ağır itki zamanı ətrafındakı insanların münasibəti onun üçün böyük sınaq olub. Onun sözlərinə görə, yanında görəcəyini düşündüyü bəzi insanlar yas mərasimində iştirak etməyiblər.

Şabanova xüsusilə qeyd edib ki, vaxtilə aralarında qalmaqal yaşanan həmkarı Nüşabə Musayeva həmin çətin günlərdə onu tək qoymayıb.

İfaçı bildirib ki, şou-biznesdə zaman-zaman anlaşılmazlıqlar və qalmaqallar yaşansa da, bunlar geridə qalıb. O, Nüşabə Musayevanın yas mərasiminə tələsərək gəldiyini və mənəvi dəstəyi ilə ona təsəlli verdiyini vurğulayıb.

Müğənni əlavə edib ki, insan ağır günündə ətrafındakı hər kəsi axtarır. Onun sözlərinə görə, "canım bacım" deyən bəzi şəxslərin həmin gün yanında görməməsi isə onda məyusluq yaradıb.

Ofelya Şabanovanın bu etirafları sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olub. İzləyicilər çətin günlərdə göstərilən mənəvi dəstəyin əsl dostluğun göstəricisi olduğunu bildirərək müxtəlif sözlər yazıblar.

# Nadir Qafarzadə: "Allah həmin gün canımı alsın"

***Müğənni Nadir Qafarzadə canlı efirdə səsləndirdiyi fikirlərlə diqqət çəkib.***



Sənətçi bildirib ki, ömrü boyu öz zəhməti ilə dolanmağa üstünlük verib və heç vaxt övladlarının qazancına möhtac olmaq istəmir.

Qafarzadə deyib ki, onun üçün ən vacib məsələ yaşlandığı dövrdə də müstəqil qalmaq və heç kimə yük olmamaqdır. O, övladlarının və ailə üzvlərinin hər zaman yanında olduğunu vurğulasa da, insanın imkan daxilində öz işini özü görməsinin daha doğru olduğunu qeyd edib.

Müğənni əlavə edib ki, evdə qızları və nəvələri ilə birlikdə yaşayır, ailə üzvləri ona böyük qayğı göstərirlər. Buna baxmayaraq, gələcəkdə yaxınlarının onun qulluğunda əziyyət çəkməsini istəmədiyini bildirib.

Sənətçi uzun ömür arzulayanlara da maraqlı mesaj ünvanlayaraq, əsas istəyinin çox yaşamaq deyil, son ana qədər sağlam və güclü qalmaq olduğunu söyləyib: "Allah məni övlad qazancına möhtac etməsin, həmin gün canımı alsın. Həmişə özüm qazanıb, özüm xərcləmişəm. Güclü olmuşam, gücsüzlüyə dözmərəm".

Nadir Qafarzadənin bu səmimi etirafı sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olub. Bəzi izləyicilər onun fikirlərini dəstəkləyərək insanın ömrünün sonuna qədər müstəqil yaşamaq arzusunu təqdir ediblər, digərləri isə mövzu ilə bağlı fərqli rəylər səsləndiriblər.



# "Ər çörəyi yeyəndə kökələcəyəm" - Səmra Hüseynova

***Model Səmra Hüseynova sosial şəbəkədə paylaşdığı açıqlama ilə müzakirələrə səbəb olub.***

Model ideal görünüş naminə yaşadığı çətinliklərdən danışaraq izləyicilərini həddindən artıq arıq olmağa həvəslənməməyə çağırıb.

Hazırda 43 kiloqram çəkidə olduğunu deyən Səmra Hüseynova bunun peşəsi ilə əlaqədar məcburiyyətdən irəli gəldiyini bildirib.

"43 kiloyam. Mənim kimi arıq olmağı arzulamayın. Model olduğum üçün bədənimlə pul qazanıram və bu çəkidə qalmağa məcburam. Amma bu, hər kəs üçün sağlam və təhlükəsiz deyil. Bunun çox çətin və ağrılı tərəfləri var. Bəzən anoreksiya ilə üzləşirəm, çox əziyyət çəkirəm", - deyə o qeyd edib.

Şəxsi həyatı ilə bağlı da danışan model gələcək planlarına toxunaraq zarafatla bunları əlavə edib: "Nə vaxt ailə qursam, ər çörəyi yesəm, onda heç nəyə fikir vermədən yemək yeyəcəyəm və kökələcəyəm". (Musavat.com)

# Nazilə Səfərli evində filippinli qadın işlədir



***Şair Nazilə Səfərli izləyicilər tərəfindən tənqid olunub.***

Buna səbəb isə onun bir aydır ev işlərini filippinli qadına gördürməsi olub.

Səfərli tənqidlərə belə cavab verib: "Xoşuma gəlir. Elə bil evdə dili var, ağzı yox bir gəlin var. Üzümə qayıtmır, məni incitmir, sifət etmir, başıaşağı işini görür. Yemək və ya çay istəyəndə gətirir. O qədər arxamca danışdılar, qeybətimi etdilər, əməyimi itirdilər ki, insanlardan qaçıram. Ürəyim istəyəndə yatıram, ürəyim istəyəndə uzanıram. Bundan da utanmıram ki, niyə mən yatıram, o işləyir. Çünki mən də gedib kiminsə qapısında işləyirəm, balasını tərifləyirəm, əziyyətini çəkirəm. İnsan bir yerdən qazanar, bir yerdən də xərcləyər".

# "Deyirlər, instaqramda daha sərt görünürsən"

***Müğənni Lətifə fanatları ilə yaşadığı maraqlı dialoqlardan danışıb.***



sənətçi paylaşdığı videoda sosial şəbəkədə onu fərqli tanıdıqlarını bildirib.

"Məni görəndə xanımlar qucaqlayıb öpür, gözəl sözlər deyirlər. Deyirlər ki, səni çox sevirik, hekayələrini daha çox paylaş. Hazırda isə dincəlməyə belə vaxtım yoxdur, az paylaşım edirəm. Həm də deyirlər ki, həyatda daha gözəlsən. Görəsən, həyatda məni daha yaxşı insan kimi görürlər? Yoxsa buradan çox sərt görünürəm? Hamı deyir ki, həyatda daha yaxşısınız" deyə, Lətifə bildirib.

24_27 IYUl-QARA.qxd 7/2/2026 10:52 PM Page 3



## "Güclü tərəfdaşlıqlar da eyni dərəcədə vacibdir" - Orxan Məmmədov



***Hazırda Cənubi Qafqaz regionunda vençur kapitala və mələk investisiyalara ehtiyac var.***

Bunu İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov Qara Dəniz Ticarət və İnkişaf Bankının Rəhbərlər Şurasının 28-ci İllik Toplantısı çərçivəsində keçirilən biznes forumda deyib.

Onun sözlərinə görə, kapitala əsaslanan maliyyə alətləri də eyni dərəcədə vacibdir: "Bunlara vençur kapitalı, birbaşa investisiya fondları (private equity) və mələk investisiyalar (angel investment) daxildir. Bu alətlər regionumuzda hələ də kifayət qədər inkişaf etməyib. Lakin onlar ixrac potensialına malik innovativ və yüksək artım nümayiş etdirən şirkətlərin dəstəklənməsində mühüm rol oynaya bilər. Təbii ki, təkcə maliyyələşmə kifayət deyil. Güclü tərəfdaşlıqlar da eyni dərəcədə vacibdir. Hökumət, dövlət bankları, dövlət qurumları, biznesə dəstək təşkilatları, Ticarət və Sənaye Palatası, digər biznes assosiasiyaları və özəl sektor birlikdə çalışaraq kiçik və orta biznesə yalnız maliyyə deyil, həm də texniki dəstək və mentorluq təqdim etməlidir".

## AMB 4 ödəniş təşkilatına məcburi göstəriş verdi




***Azərbaycan Mərkəzi Bankı (AMB) "Global İnnovations", "United Payment", "Baku Pay" və "Fizza Pay" məhdud məsuliyyətli cəmiyyətlərinə icrası məcburi olan göstərişlər verib.***

"Unikal" bu barədə AMB-yə istinadən xəbər verir. Məlumata görə, "Global İnnovations" MMC-yə "Ödəniş təşkilatları və elektron pul təşkilatları tərəfindən fəaliyyətin təşkili və həyata keçirilməsi Qaydası"nın 4.2-ci bəndi ilə müəyyən edilmiş məcmu kapitalın minimum məbləği tələbinin, eləcə də həmin Qaydada nəzərdə tutulan digər tələblərin pozulması hallarının aradan qaldırılması məqsədilə "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" qanunun 63.1-ci maddəsinə əsasən icrası məcburi göstəriş verilib.

"United Payment" MMC-yə isə yerində yoxlama zamanı qanunvericiliyin və normativ aktların tələblərinin pozulması halları aşkar edildiyindən, "Mərkəzi Bank haqqında" qanunun 48.2.4-cü və "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" qanunun 63.1-ci maddələrinə uyğun olaraq, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində mövcud çatışmazlıqların aradan qaldırılması barədə icrası məcburi göstəriş verilib.

"Baku Pay" MMC-yə planlı yoxlama zamanı aşkar edilmiş qanunvericilik və normativ akt tələblərinin pozulması ilə əlaqədar olaraq, ödəniş xidməti istifadəçilərinə məxsus pul vəsaitlərinin təhlükəsizliyinin təmin edilməsi, daxili nəzarət, daxili audit və risklərin idarə edilməsi sistemlərindəki çatışmazlıqların aradan qaldırılması üçün "Mərkəzi Bank haqqında" qanunun 48.2.4-cü və "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" qanunun 63.1-ci maddələrinə əsasən icrası məcburi göstəriş verilib.

"Fizza Pay" MMC-yə isə müəyyən edilmiş müddət ərzində daxili nəzarət sistemlərinin təkmilləşdirilməsi, daxili audit və risklərin idarə edilməsi istiqamətində kadr potensialının gücləndirilməsi ilə bağlı icrası məcburi göstəriş verilib.

# Sabiq nazirlərin "nemetskiy şot" söhbəti

## Haqlarında çoxmilyonluq korrupsiya iddiaları dolaşan keçmiş iri məmurlar necə gözdən pərdə asmağa çalışırlar?

***Bir neçə gün öncə Xalq yazıçısı Çingiz Abdullayev özünün feysbuk hesabında məşhur simaların da yer aldığı məclisdən bir foto paylaşdı. Fotoda sabiq nazirlər Əbülfəs Qarayevlə Elmar Məmmədyarov da vardı.***

Həmin foto ilə bağlı "Globalinfo"ya danışan Elmar Məmmədyarov bildirib ki, şəkil Azərbaycan SSR daxili işlər naziri Arif Heydərovun 100 illik yubileyində çəkilib: "İyunun 27-də Arif Heydərovun oğlu Murad Heydərovun dəvəti ilə məclisdə iştirak etmişik. Adətən, şad günlərdə, anım günlərində, yaslarda dostlarla görüşürük, söhbət edirik. Gözəl anlarda şəkil də çəkdiririk".

Deyəsən, sabiq nazirlər öz aləmlərində düşünürlər ki, belə açıqlamalarla cəmiyyətdə "tərtəmiz" obrazı yaratmağa nail olacaqlar.

Gəlin xatırlayaq: illər öncə keçmiş nəqliyyat naziri Ziya Məmmədov az qala dolanışıqdan gileylənmişdi, güzəranını təmin etmək üçün mal-qoyun saxladığını, taxıl, yonca becərdiyini demişdi. Sanki uzun müddət ölkənin ən böyük büdcəyə malik nazirliklərindən birinə o rəhbərlik etməmişdi, yolların, körpülərin inşasına şişirdilmiş xərcləri o çəkməmişdi, həmin yolların, körpülərin çox keçmədən dağılması, təmirə ehtiyac duyması onlara sərf olunan pulların böyük bir hissəsinin Ziya müəllimin "yeminə" çevrildiyini söyləməyə əsas yaratmamışdı! Bir sözlə, hər şey gün kimi aşkar şəkildə ortadaykən Ziya müəllim məlum açıqlaması ilə cəmiyyəti inandırmağa çalışmışdı ki, əslində vəzifədə oliqarxlaşdığı haqqında deyilənlər əsassızdır, nə böyük sərvəti, nə nəhəng biznesi var, necə deyərlər, "bir həsirdir, bir Məmmədnəsir!" El dilində desək, inanan daşa dönsün.



Elmar Məmmədyarov əlavə edib ki, dostlarla zəngləşib, birlikdə hansısa tamaşaya gedir, çay süfrəsi arxasında görüşür, xatirələrini bölüşürlər. "Dost məclislərində hesab necə ödənir, kim qabağa düşür" sualına cavabında isə sabiq nazir belə deyib: "Xüsusi günlər olmayanda görüşdükdə isə "nemetskiy şot" olur. Yəni tamaşaya və ya çay içməyə gedən zaman pulu birlikdə toplayır, elə ödəyirik. Təki hər zaman şad günlər olsun, qalan işlər düzələndir".

Elə bizim diqqətimizi çəkən də Məmmədyarovun "nemetskiy şot"la bağlı dedikləri oldu. Bu sözlərin nəyə hesablandığını bilmək çətin deyil. Son illərdə Azərbaycanın "vurulan" iri məmurları özləri ilə bağlı sadə, əliaçağı azərbaycanlı obrazı yaratmaq üçün dəridən-qabıqdan çıxırlar. Onların bu cəhdi vəzifədə olarkən özləri barədə cəmiyyətdə formalaşan "korrupsioner", ən yaxşı halda "oliqarx" obrazını, bir növ, darmadağın etməyə hesablanıb. Sabiq nazir indi az qala özünün hər müsahibəsində elə danışır ki, guya ölkədə hamı balıq hafizəlidir, səhər yediyini günorta unudur və bu səbəbdən də Misir müəllimin təhsil naziri olarkən bu sahədə hökm sürən, at oynadan rüşvət və mənimsəmə hallarını da artıq yaddan çıxarıb!

Ya da təhsil naziri olduğu dövrdə Azərbaycan təhsilini rüşvət və korrupsiya bataqlığına sürükləyən, leksikonumuzu "tabaşirpulu", "süpürgəpulu", "pərdəpulu" kimi yeni sözlərlə "zənginləşdirən" Misir Mərdanov bir dəfə aldığı pensiya hesabına dolandığını söyləmişdi. Belədə yada ölməz Sabirin məşhur misraları düşməyə bilərmi: "Əcəb gülməlisən xaniman xərab!" Mərdanovun təkcə yaxın qohumu, hətta xalasıoğlu olduğu deyilən şəxs sayəsində məktəb tikintisi və təmirindən qazandıqları (yenə də şişirdilmiş xərclər hesabına!) ona da, nəvə-nəticələrinə, kötücələrinə, iticələrinə onillərlə kifayət edər. Ancaq di gəl, sabiq nazir indi az qala özünün hər müsahibəsində elə danışır ki, guya ölkədə hamı balıq hafizəlidir, səhər yediyini günorta unudur və bu səbəbdən də Misir müəllimin təhsil naziri olarkən bu sahədə hökm sürən, at oynadan rüşvət və mənimsəmə hallarını da artıq yaddan çıxarıb!

Elə Məmmədyarovla Qarayevin özlərini götürək. Hər ikisinin vaxtilə rəhbəri olduqları nazirlikləri rüşvət və korrupsiya bataqlığına çevirdiyini Dövlət Təhlükəsizlik Xidmətinin keçirdiyi xüsusi əməliyyatlar el-aləmə açıq şəkildə göstərdi. Diplomatiya və mədəniyyət kimi əyri işlərdən ən çox uzaq dayanılması gərəkən iki sahəni "qaz vurub qazan doldurmaq" məqsədilə ağlasığmaz qanunsuzluqların ağuşuna atan, biri Nyu-Yorkda oğluna milyonlarla dollarlıq mənzil alacaq qədər, digəri həyat yoldaşının və qızının adına Moskvadan Avropayadək böyük bir coğrafiyada biznes imperiyası quran iki sabiq nazir bütün bunlardan sonra oturub gözləyirlər ki, camaat onların hətta çayı da "nemetskiy şot"la içdiyinə inansınlar. Ayıbdı, vallah da ayıbdı, billah da ayıbdı! Öz əməllərinizlə dövlətə, cəmiyyətə vurduğunuz ziyanlar azmış kimi bir də xəcalət çəkmək əvəzinə insanları sadəlövh yerinə qoyursunuz?

Bizdən sabiqlərə məsləhət: artıq əl çəkin özünüzlə bağlı "sadə, tərtəmiz azərbaycanlı" obrazı yaratmağa çalışmaqdan. Vəzifədə ikən yol verdiyiniz qanunsuzluqlara görə dəmir barmaqlıqlar ardına atılmalı olduğunuz halda qanunsuz yollarla yığdığınız milyonlarla manat sayəsində şellənirsiniz, barı insanların ağlı ilə məzələnməyin, əsəbləri ilə oynamayın!

***Toğrul Əliyev***

# Hamı İrəvanda gözləyirdi, əvvəlcə Bakıya gəldi - Aİ-nin gizli mesajı

***Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin 2026-cı il iyulun 1-də Azərbaycana etdiyi səfər təkcə ikitərəfli münasibətlər baxımından deyil, həm də Avropa İttifaqının Cənubi Qafqaz siyasətində dəyişən prioritetlərinin göstəricisi kimi qiymətləndirilə bilər.***

Səfərin ən diqqətçəkən məqamlarından biri onun marşrutu oldu. Əvvəlcə Ermənistana, daha sonra isə Azərbaycana səfər edəcəyi gözlənilən Avropa Komissiyası Prezidenti ilk olaraq Bakını seçdi.

Bu qərar təsadüfi diplomatik detal deyil. Əksinə, Avropa İttifaqının regionda siyasi bəyanatlardan daha çox strateji maraqlara əsaslanan siyasət yürütməsinin növbəti nümunəsidir.



Son illər Avropa İttifaqının enerji siyasəti ciddi transformasiya mərhələsinə daxil olub. Rusiya-Ukrayna müharibəsindən sonra Avropa enerji təhlükəsizliyini yenidən formalaşdırmağa məcbur qaldı və alternativ mənbələrin əhəmiyyəti kəskin şəkildə artdı. Bu prosesdə Azərbaycan Aİ üçün əsas tərəfdaşlardan birinə çevrildi.Məhz bu kontekstdə Ursula Fon der Lyayenin 2022-ci il iyulun 18-də Bakıya səfəri tarixi əhəmiyyət daşıyırdı.

Həmin səfər zamanı Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalandı. Memorandum Azərbaycan qazının Avropa bazarına nəqlinin artırılmasını və enerji əməkdaşlığının uzunmüddətli əsasda inkişaf etdirilməsini nəzərdə tuturdu.

Aradan dörd il keçdikdən sonra Avropa Komissiyası Prezidentinin yenidən Bakıya gəlməsi onu göstərir ki, həmin sənəd sadəcə siyasi bəyanat deyil, praktik əməkdaşlığın təməlini təşkil edib. Hazırda Azərbaycan Avropanın enerji təhlükəsizliyinin mühüm elementlərindən biri kimi çıxış edir.

Maraqlıdır ki, son illərdə Avropa İttifaqına inteqrasiya istiqamətində ən fəal addımlar atan ölkə məhz Ermənistandır.

İrəvan Qərblə münasibətləri sürətlə genişləndirib, Avropa strukturları ilə əməkdaşlığı artırıb, hətta bu siyasət fonunda Rusiya ilə münasibətlərdə ciddi gərginlik yaranıb. Belə ki, Moskva artıq İrəvanı Avrasiya İqtisadi Birliyi (AİB) və Avropa İttifaqı (Aİ) arasında seçim etməyə çağırır. Eyni zamanda seçimin mahiyyətini anlamaq üçün Ermənistan məhsullarının Rusiyaya və birlik ölkələrə ixracını süni şəkildə məhdudlaşdırır.

Məhz bu səbəbdən ötən gün Ermənistan tərəfinin təşəbbüsü ilə Ermənistanın Baş naziri Nikol Paşinyanla Rusiyaın Baş naziri Mixail Mişustin arasında telefon danışığı olub. Tərəflər ticarət-iqtisadi, elmi-texnoloji və mədəni-humanitar sahələrdə əməkdaşlığı müzakirə ediblər.

Belə bir vəziyyətdə Avropanın siyasi mesaj verməк və İrəvana dəstəyini ifadə etmək üçün ilk səfəri Ermənistana planlaşdırırdı. Buna baxmayaraq, Ursula Fon der Lyayenin ilk səfər ünvanı Ermənistan deyil, Azərbaycan oldu.

Bu fakt onu göstərir ki, Avropa İttifaqının xarici siyasətində geosiyasi və iqtisadi maraqlar böyük rol oynayır. Ermənistan Avropa üçün siyasi tərəfdaş ola bilər, lakin Azərbaycan həm enerji təminatçısı, həm nəqliyyat qovşağı, həm də Orta Dəhlizin əsas iştirakçılarından biri kimi daha yüksək strateji çəkiyə malikdir.

Başqa sözlə, Brüssel üçün Cənubi Qafqaz siyasətində Bakı artıq təkcə regional aktor deyil, Avropa təhlükəsizliyinin vacib elementidir.

Prezident İlham Əliyevlə Ursula Fon der Lyayen arasında keçirilən görüşdə yalnız enerji məsələlərinin deyil, iqtisadi əməkdaşlıq, nəqliyyat-logistika, regional bağlantılar, rəqəmsal transformasiya, yaşıl enerji və Cənubi Qafqazda sabitlik məsələlərinin də müzakirə olunması bunu göstərir ki, tərəflər münasibətləri daha geniş strateji çərçivədə inkişaf etdirməyə çalışırlar.

Azərbaycan artıq yalnız təbii qaz ixracatçısı kimi deyil, həm də Xəzər hövzəsinin yaşıl enerji potensialını Avropa bazarına çıxarmağı hədəfləyən tərəfdaş kimi çıxış edir. Xəzər dənizində külək enerjisi layihələri, Qara dənizin dibi ilə çəkilməsi planlaşdırılan elektrik kabeli, Orta Dəhliz üzrə nəqliyyat əməkdaşlığı və rəqəmsal bağlantılar Aİ-Azərbaycan münasibətlərinin yeni istiqamətlərini formalaşdırır.

Avropa İttifaqı üçün Çin ilə Avropa arasında alternativ ticarət marşrutlarının yaradılması getdikcə daha mühüm məsələ halını alır. Bu baxımdan Orta Dəhliz son illərdə xüsusi əhəmiyyət qazanıb. Azərbaycan isə bu marşrutun əsas tranzit ölkəsi hesab olunur. Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, Xəzər üzərindən yükdaşımalar və regionda həyata keçirilən logistika layihələri Azərbaycanın strateji mövqeyini daha da gücləndirib.

Bu reallıq Avropa Komissiyası Prezidentinin Bakıya səfərinin yalnız enerji gündəliyi ilə məhdudlaşmadığını göstərir. Söhbət Avropanın yeni iqtisadi və nəqliyyat arxitekturasında Azərbaycanın rolunun genişlənməsindən gedir.

Son illər müəyyən siyasi fikir ayrılıqlarına baxmayaraq, Azərbaycan ilə Avropa İttifaqı arasında dialoq heç vaxt dayanmayıb. Əksinə, qarşılıqlı maraqlar münasibətlərin davamlı inkişafını təmin edib.

Brüssel Azərbaycanı yalnız enerji tərəfdaşı kimi deyil, regional sabitliyin təmin olunması, Avropa ilə Asiya arasında bağlantıların inkişafı və iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsi baxımından da mühüm aktor hesab edir.

İlk səfərin Bakıya edilməsi isə həm diplomatik jest, həm də siyasi mesajdır. Bu addım Avropa İttifaqının Cənubi Qafqaz siyasətində Azərbaycanın xüsusi yer tutduğunu nümayiş etdirir.

***Ağarza Elçinoğlu***




# İtkin düşmüş şəxslərlə bağlı yeni rəqəmsal platforma istifadəyə verildi

***Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası (Dövlət Komissiyası) tərəfindən itkin düşmüş şəxslərlə bağlı məlumatların qəbulu, idarə olunması və vətəndaş müraciətlərinin elektron formada həyata keçirilməsi məqsədilə hazırlanmış Onlayn Sorğu Mərkəzi (Online Inquiry Center-OIC) istifadəyə verilib.***

"Unikal" xəbər verir ki, bu barədə komissiyadan bildirilib. Portal Dövlət Komissiyası ilə İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiya (ICMP) arasında həyata keçirilən əməkdaşlıq çərçivəsində hazırlanmış Məlumat İdarəetmə Sistemi (Integrated Data Management System - iDMS) əsasında yaradılmışdır.

Yeni rəqəmsal platforma itkin düşmüş şəxslərlə bağlı məlumatların vahid elektron sistemdə idarə olunmasına, dövlət qurumları arasında operativ məlumat mübadiləsinin təmininə, vətəndaş müraciətlərinin daha çevik araşdırılmasına və itkin düşmüş şəxslərin ailə üzvləri ilə qarşılıqlı əlaqələrin müasir rəqəmsal müstəvidə təşkilinə xidmət edir.

Sistemin hazırlanması zamanı Azərbaycan Respublikasının qanunvericiliyinin tələbləri, və Dövlət Komissiyasının fəaliyyət istiqamətləri nəzərə alınmışdır. Portal tam şəkildə Azərbaycan dilində fəaliyyət göstərir və məlumatlar Azərbaycan Respublikasının ərazisində yerləşən serverlərdə saxlanılır. Portal istifadəçilərə aşağıdakı imkanları təqdim edir:

"İtkin düşmüş şəxs barədə məlumat ver" (Report a Missing Person) xidməti vasitəsilə itkin düşmüş şəxslər barədə yeni məlumatların təqdim edilməsi;

"Sorğu göndər" (Request on Missing Persons) bölməsi vasitəsilə Dövlət Komissiyasına elektron müraciətlərin ünvanlanması;

"Məkanı göstər" (Indicate a Place) xidməti vasitəsilə ehtimal olunan məzar və ya dəfn yerləri barədə coğrafi koordinatlarla birlikdə məlumatların təqdim edilməsi;

fotoşəkillərin, sənədlərin və digər materialların elektron qaydada sistemə əlavə olunması;

müraciətlərin daha operativ araşdırılması üçün əlavə məlumatların təqdim edilməsi.

Portalın mühüm üstünlüklərindən biri də vətəndaşlardan daxil olan məlumatların vahid elektron bazada sistemləşdirilməsi, təhlil edilməsi və aidiyyəti dövlət qurumlarının istifadəsinə təqdim olunmasıdır. Bu isə axtarış, qazıntı, ekshumasiya və eyniləşdirmə proseslərinin daha səmərəli planlaşdırılmasına imkan verir.

Onlayn Sorğu Mərkəzindən istifadə üçün Dövlət Komissiyasının rəsmi internet saytına daxil olmaq kifayətdir:

?? https://scmp.gov.az/ ??

Dövlət Komissiyası itkin düşmüş şəxslərin taleyinin müəyyən olunmasına kömək edə biləcək hər hansı məlumata malik bütün şəxsləri Onlayn Sorğu Mərkəzinin imkanlarından istifadəyə çağırır.

24_27 IYUl-QARA.qxd 7/2/2026 10:52 PM Page 5



# Prezident fərman imzaladı



***Səhiyyə nazirinin müavinlərinin sayı artırılıb.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Səhiyyə Nazirliyi haqqında Əsasnamədə dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

Fərmanla səhiyyə nazirinin müavinlərinin sayı 3-dən 4-ə artırılıb.

# Ceyhun Bayramov BMT Baş katibinin xüsusi elçisi ilə görüşüb



***Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan BMT Baş katibinin yol təhlükəsizliyi üzrə xüsusi elçisi Jan Todt ilə görüşüb.***

Bu barədə "Unikal"a XİN-dən məlumat verilib.

Bildirilib ki, görüş zamanı Azərbaycan ilə BMT arasında mövcud əməkdaşlıq gündəliyi, yol təhlükəsizliyi sahəsində beynəlxalq əməkdaşlıq məsələləri, habelə bu istiqamətdə qlobal təşəbbüslər ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov ölkəmizin Dayanıqlı İnkişaf Məqsədlərinin icrası, təhlükəsiz, dayanıqlı və müasir nəqliyyat sisteminin inkişafı, eləcə də yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirdiyi ardıcıl islahatlar barədə məlumat verib. Bu çərçivədə, nəqliyyat infrastrukturunun müasirləşdirilməsi, rəqəmsal həllərin tətbiqi və yol hərəkəti təhlükəsizliyinin gücləndirilməsi sahəsində görülən işlər vurğulanıb. Nazir həmçinin bütün ölkə ərazisində, xüsusilə də işğaldan azad edilmiş ərazilərimizdə yüksək səviyyəli yol və infrastruktur layihələrinin həyata keçirildiyini diqqətə çatdırıb.

Jan Todt BMT Baş katibinin xüsusi elçisi qismində həyata keçirilən fəaliyyət, yol-nəqliyyat hadisələrinin qarşısının alınması və bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində görülən tədbirlər barədə məlumat verib. O, Azərbaycanın yol təhlükəsizliyi sahəsində həyata keçirdiyi tədbirləri və əldə olunan irəliləyişi yüksək qiymətləndirib, bu istiqamətdə əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

# Paşinyan İrana gedir

***Ermənistan Baş naziri Paşinyan Əli Xameneinin vida mərasimində iştirak etmək üçün İrana səfər edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan hökumətinin başçısı jurnalistlər üçün keçirilən brifinqdə məlumat verib.

O, həmçinin, qeyd edib ki, səfər çərçivəsində İran rəhbərliyi ilə təmaslar planlaşdırılır.

Qeyd edək ki, İranın keçmiş ali rəhbərinin vida mərasimi 4-9 iyul tarixlərində İran və İraqda baş tutacaq.


Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Son dəqiqə" MMC mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000




# Azərbaycandan tranzit keçməklə Ermənistana buğda göndəriləcək

***İyulun 3-də Rusiyadan Ermənistana Azərbaycandan tranzit keçməklə 14 vaqon buğda göndəriləcək.***

"Unikal" xəbər verir ki, yük Biləcəri stansiyasından yola salınacaq.

# YAP nümayəndə heyətinin Çinə səfəri başa çatdı

***Çin Kommunist Partiyasının (ÇKP) dəvəti ilə Çin Xalq Respublikasına səfər edən Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndə heyəti Şanxay şəhərində "Çinin sosial-iqtisadi inkişafına dair 15-ci beşillik proqram və Çin xüsusiyyətli modernləşmə" və "Kadrların hazırlanması və partiyanın gənclər siyasəti" mövzusunda seminarlarda iştirak edib.***

"Unikal" xəbər verir ki, daha sonra nümayəndə heyətinin Pekin şəhərində ÇKP Beynəlxalq əlaqələr şöbəsinin Avrasiya departamenti direktorunun müavini Syu Çinsian ilə görüşü olub. Görüşdə dövlət başçılarının siyasi iradəsi sayəsində iki ölkə arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyi vurğulanıb, hakim siyasi partiyalar arasında əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Nümayəndə heyəti partiya üzvlüyünün 50 illiyi tamam olan ÇKP üzvlərinin təltif olunması mərasimində də iştirak edib. Tədbirdə ÇKP Mərkəzi Komitəsinin üzvü, Mərkəzi Komitənin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lyu Haysin və digər ÇKP nümayəndələri, eləcə də Azərbaycan, Liviya, Kot d'İvuar, Zambiya və Anqoladan olan nümayəndə heyətlərinin rəhbərləri çıxış ediblər.



YAP nümayəndə heyətinin rəhbəri, partiyanın Təftiş Komissiyasının üzvü, Milli Məclisin Gənclər və idman komitəsinin üzvü Vüqar İskəndərov ÇKP-nin yaradılmasının 105 illiyinin qeyd olunduğu dövrdə belə bir tədbirin keçirilməsinin xüsusi rəmzi məna kəsb etdiyini bildirib: "Bu illər ərzində partiya şərəfli və zəngin inkişaf yolu keçmiş, müasir Çinin formalaşmasında və inkişafında həlledici rol oynamışdır. Bu gün Çinin iqtisadiyyat, elm, texnologiya və dövlət idarəçiliyi sahələrində əldə etdiyi nailiyyətlər dünyada böyük rəğbət və hörmətlə qarşılanır".

V.İskəndərov siyasi partiyalar arasında təcrübə mübadiləsinin qarşılıqlı anlaşmanın dərinləşməsinə, etimadın möhkəmlənməsinə və müasir dövrün çağırışlarına effektiv cavab verilməsinə mühüm töhfə olduğunu qeyd edib: "Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında münasibətlər bu gün ən yüksək səviyyədədir. Buna Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin rəhbərliyi ilə ölkələrimiz arasındakı hərtərəfli strateji tərəfdaşlıq mühiti önəmli zəmin yaradır. Qeyd etmək istərdim ki, 2024-cü il 13 noyabr tarixində Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinin Çinə səfəri çərçivəsində partiyalar arasında Əməkdaşlıq memorandumunun imzalanması tərəfdaşlığımızı keyfiyyətcə yeni inkişaf mərhələsinə yüksəltmişdir. Biz partiyalararası əməkdaşlığa böyük dəyər veririk və əminik ki, bu işbirliyi yeni birgə layihələr və təşəbbüslərlə daha da zənginləşərək uğurla inkişaf edəcəkdir".

Səfər çərçivəsində nümayəndə heyəti ÇKP Mərkəzi Komitəsi Beynəlxalq əlaqələr şöbəsi müdirinin müavini Sun Haiyan ilə də görüşüb. Görüşdə qarşılıqlı səfərlərin partiyalararası əlaqələrin inkişafında mühüm rolu vurğulanıb. YAP nümayəndə heyətinin keçirdiyi görüşlərdə və iştirak etdiyi seminarlarda faydalı fikir mübadiləsinin aparıldığı diqqətə çatdırılıb.

Nümayəndə heyətinin Hebey vilayətinin Syunyan, Çensyan və Şasi şəhər tipli qəsəbələrinə, Böyük Çin səddinə və İmperator saray kompleksinə ziyarəti də təşkil olunub.

YAP nümayəndə heyətinin səfəri iyulun 2-də başa çatıb.

# AAYDA-ya məxsus bu qurumlar ləğv olundu

***Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə (AAYDA) məxsus bir sıra yol istismar qurumları ləğv olunduğunu elan edib.***

"Unikal" İqtisadiyyat.az-a istinadən xəbər verir ki, bununla bağlı müvafiq qərarlar qəbul olunub.

Məlumata görə, agentliyin ləğv olunduğunu elan etdiyi yol istismar şirkətləri aşağıdakılardır:

- "Bakı 1 №-li Yol İstismarı" MMC - direktoru Zaur Həmzəyev;
- "Bakı 5 №-li Yol İstismarı" MMC - direktoru İntiqam Hüseynov;
- "Bakı 6 №-li Yol İstismarı" MMC - direktoru Tural Dəmirli;
- "Bakı 7 №-li Yol İstismarı" MMC - direktoru Müşviq İmranov;
- "Bakı 8 №-li Yol İstismarı" MMC - direktoru Cabir Qurbanov;
- "Bakı 9 №-li Yol İstismarı" MMC - direktoru Natiq İsmayılov;
- "Bakı 10 №-li Yol İstismarı" MMC - direktoru Elman Cavadi;
- "1 №-li Xüsusi Təyinatlı Yol İstismarı" MMC - direktoru Etibar Kərimov;
- "17 №-li Xüsusi Təyinatlı Yol İstismarı" MMC - direktoru Şahin Süleymanov;
- "18 №-li Xüsusi Təyinatlı Yol İstismarı" MMC - direktoru Camal Sadıxov.




Xatırladaq ki, daha əvvəl 1, 2 və 3 nömrəli Avtomobil Yollarının Yaşıllaşdırılması məhdud məsuliyyətli cəmiyyətləri və 1 nömrəli Regional Avtomobil Yollarının Yaşıllaşdırılması və Ekologiyası MMC, 2 nömrəli Regional Avtomobil Yollarının Yaşıllaşdırılması və Ekologiyası Məhdud Məsuliyyətli Cəmiyyəti ləğv olunub. Bundan əlavə, 4, 5, 6, 7, 8, 9 və 10 nömrəli Avtomobil Yollarının Yaşıllaşdırılması məhdud məsuliyyətli cəmiyyətləri də ləğv olunduqlarını elan edib.

# "Qarabağ" - "Vestri" matçının biletləri satışa çıxır

***UEFA Avropa Liqasının 1-ci təsnifat mərhələsində keçiriləcək "Qarabağ" - "Vestri" (İslandiya) qarşılaşmasının biletləri sabahdan satışda olacaq.***

"Unikal" xəbər verir ki, bu barədə "Qarabağ"ın mətbuat xidməti məlumat yayıb.

Tofiq Bəhramov adına Respublika stadionunda keçiriləcək qarşılaşmanın standart biletlərinin qiyməti 5, 10, 15 və 20 manat təşkil edəcək. VİP sektorlar üzrə biletlər 50, 75 və 100, VVİP sektorlar üçün isə 150 manata satışa çıxarılacaq.

Biletləri yalnız iTicket.az-ın rəsmi saytı və mobil tətbiqi vasitəsilə əldə etmək mümkündür. Onlayn alış zamanı problem yaranacağı təqdirdə isə azarkeşlər iTicket.az-ın satış məntəqələrinə, Park Bulvardakı "Qarabağ" FK Fan Şopuna və Tofiq Bəhramov adına Respublika stadionunun kassalarına müraciət edə bilərlər.

Qeyd edək ki, "Qarabağ" - "Vestri" görüşü iyulun 9-da saat 20:00-da başlayacaq.

24_27 IYUl-QARA.qxd 7/2/2026 10:52 PM Page 6



# İlham Əliyev Türkiyənin ədliyyə nazirini qəbul etdi

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 2-də Türkiyə Respublikasının ədliyyə naziri Akın Gürleki qəbul edib.***



”Unikal” xəbər verir ki, qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən Akın Gürlek Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Qonaq ortaq tarixə, mədəniyyətə və qardaşlığa əsaslanan əlaqələrimizin Azərbaycan və Türkiyə prezidentləri arasında mövcud olan səmimi münasibətlər sayəsində daha da inkişaf etdiyini vurğuladı.

Türkiyənin ədliyyə naziri dövlətimizin başçısının güclü liderliyi ilə ölkəmizin inkişaf etdiyini deyərək, bu xüsusda Azərbaycanın iqtisadi tərəqqisinə, beynəlxalq nüfuzunun daha da artmasına və tarixi Qarabağ Zəfərinə toxundu.

Akın Gürlek, həmçinin Azərbaycanın bölgədə enerji, bağlantılar, o cümlədən Zəngəzur dəhlizi kimi strateji layihələrin həyata keçirilməsində önəmli rolunu vurğuladı və Türkiyənin bundan sonra da ölkəmizin yanında olacağını dedi.

Söhbət zamanı bütün sahələri əhatə edən Azərbaycan-Türkiyə qardaşlıq və müttəfiqlik münasibətlərinin uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı. Ölkələrimizin Ədliyyə nazirlikləri arasında səmərəli tərəfdaşlığın qurulduğu bildirilərək, əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# DİM imtahan iştirakçılarına çağırış etdi

***Ali təhsil müəssisələrinin V ixtisas qrupu üzrə İdman istiqamətinə aid qabiliyyət imtahanında bir nəfər başqasının yerinə imtahana daxil olmağa cəhd edib.***

Bu barədə ”Unikal”a DİM-dən məlumat verilib. Yoxlama zamanı həmin şəxsin əsl kimliyi müəyyən edilərək imtahana buraxılmayıb. Bildirilib ki, burada hər iki tərəf məsuliyyət daşıyır: ”İlk növbədə imtahanda iştirak etməli olan şəxsin bütün imtahan nəticələri ləğv olunur və müsabiqədən kənarlaşdırılır. Eyni zamanda başqasının yerinə imtahana girmək istəyənin də hüquqi məsuliyyəti var. Təəssüf ki, bu şəxslər bəzən ali təhsil müəssisələrinin aşağı kurs tələbələri olurlar və nəticədə onlar ali məktəbdən xaric oluna bilərlər.

Daha əvvəl də bu kimi hallara qarşı Dövlət İmtahan Mərkəzi əlaqədar qurumlarla birlikdə müxtəlif tədbirlər həyata keçirib. Ötən illərdə belə qayda pozuntuları ilə bağlı hüquq mühafizə orqanları müvafiq addımlar atıb və aidiyyəti məhkəmələr tərəfindən lazımi qərarlar verilib.

Odur ki, imtahan iştirakçıları belə məsələlərdə öz məsuliyyətini dərk etməli və bu cür qayda pozuntularından çəkinməlidirlər. Dövlət İmtahan Mərkəzi bir daha vətəndaşlara müraciət edərək, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu, eləcə də digər imtahanlarla bağlı qanunvericiliyin tələblərinə tam riayət etməyə çağırır. Bu sahədə mövcud qanunvericiliyin tələblərini pozan şəxslərə qarşı müvafiq qurumlar tərəfindən ciddi tədbirlərin görülməsi bundan sonra da davam etdiriləcək”.

Dövlət İmtahan Mərkəzi imtahan iştirakçılarını tələb olunan qaydalarla bağlı diqqətli olmağa çağırıb.

Bildirilib ki, Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanlarda iştirakçıların bərabər şərtlər altında imtahan verməsi, davranış qaydalarına riayət edilməsinə nəzarət imtahan verənlərin bilik və bacarıqların qiymətləndirilərkən ədalətli seçimin təmin edilməsinə yönəldilir: ”Lakin bəzi hallarda abituriyentlər qanunsuz yollarla imtahanlardan müsbət nəticə əldə etməyə cəhd




edirlər. Məlumdur ki, hər bir imtahan nəticəsi elan olunarkən DİM tərəfindən imtahanda baş vermiş qayda pozuntuları haqqında məlumat verilir və imtahanlardan xaric olunmuş abituriyentlərin nəticələrinin ləğv olunması elan edilir. Bəzi qayda pozuntuları hüquqi məsuliyyət yaradır və qanunvericiliklə adekvat tədbirlərin görülməsini tələb edir. Bunlardan ən əsası imtahanda iştirak etməli olan şəxsin əvəzinə başqa birinin imtahan verməsi və ya ona cəhd etməsidir. Bu, tələbə qəbulu qaydalarında da öz əksini tapıb. Abituriyentin yol verməsi qadağan olunan hərəkətlərdən biri məhz saxta və ya başqasına aid sənəd təqdim etmək, imtahana öz yerinə başqasını göndərməkdir”.

# Zakir Həsənov: “Azərbaycan BMT və NATO əməliyyatlarında iştirak perspektivlərini araşdırır”

***1999-cu ildən bu günə qədər Azərbaycan Ordusunun 3 000-dən çox hərbi qulluqçusu dünyanın müxtəlif regionlarında keçirilən sülhməramlı əməliyyatlarda iştirak edib.***



”Unikal” xəbər verir ki, bunu müdafiə naziri Zakir Həsənov Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və Müdafiə Nazirliyinin birgə hazırladığı ”Azərbaycan Ordusunun sülhməramlı əməliyyatlarına dair hesabat” üçün yazdığı ön sözdə bildirib.

Nazir qeyd edib ki, Azərbaycan sülhməramlılarının fəaliyyəti tərkibində xidmət keçdikləri sülhməramlı qüvvələrin komandanlığı, müxtəlif ölkələr və beynəlxalq təşkilatlar tərəfindən daim yüksək qiymətləndirilib.

Zakir Həsənov qeyd edib ki, dünyada gedən turbulent geosiyasi proseslər və müxtəlif regionlarda baş verən münaqişələr sülhməramlıların rolunun artdığını göstərir: ”Azərbaycan dünya birliyinin və BMT nin üzvü kimi sülhün qorunmasına və qlobal təhlükəsizliyin dəstəklənməsinə yönəlmiş bütün təşəbbüsləri dəstəkləyir. Hazırda beynəlxalq sülhün qorunmasına köməklik göstərilməsi üçün BMT-nin və NATO-keçirdiyi müxtəlif əməliyyatlarda Azərbaycan Ordusunun iştirak imkanları araşdırılır”.

Nazir vurğulayıb ki, sülhməramlı əməliyyatlarda iştirakla bağlı verilən siyasi qərarlar, ölkənin göstərdiyi irad və sülhməramlı qüvvələrin verdiyi töhfələr Azərbaycanın dünyada etibarlı tərəfdaş və dost kimi nüfuzunu daha da gücləndirmiş, eləcə də sülhsevər ölkə kimi tanıdıb.

Qeyd edək ki, Müdafiə Nazirliyi və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi ”Azərbaycan Ordusunun sülhməramlı əməliyyatlarına dair hesabat” hazırlayıb.




## Deputatlarımız Niderlanda gedəcəklər

***Milli Məclisin deputatları - ATƏT PA-da nümayəndə heyətinin rəhbəri Qaya Məmmədov, nümayəndə heyətinin üzvləri Sevinc Fətəliyeva, Azay Quliyev və Tural Gəncəliyev təşkilatın 33-cü illik sessiyasında iştirak etmək üçün iyulun 3-də Niderland Krallığının Haaqa şəhərinə səfər edəcəklər.***

Bu barədə “Unikal”a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib. Qurumun sessiyasında “Beynəlxalq hüquq və ortaq prinsiplər: ATƏT məkanında təhlükəsizlik və əməkdaşlığın əsasları” mövzusunda müzakirələr aparılacaq, bir sıra təşkilati məsələlərə baxılacaq. Sessiya çərçivəsində ATƏT PA-nın Daimi komitəsi və Büronun iclasları, habelə qurumun Siyasi məsələlər və təhlükəsizlik üzrə, İqtisadi məsələlər, elm, texnologiya və ətraf mühit üzrə, Demokratiya, insan haqları və humanitar məsələlər üzrə Komitələrinin toplantıları keçiriləcək, müvafiq qərarlar qəbul olunacaq. Milli Məclisin nümayəndə heyətinin üzvləri sessiya ərzində keçiriləcək tədbirlərə qatılacaq, müzakirəyə çıxarılan məsələlərə öz münasibətini bildirəcəklər.

Səfər iyulun 10-da başa çatacaq.

## DSK sədri daha bir idarə rəisini işdən çıxardı

***Mingəçevir Şəhər Statistika İdarəsinin rəisi Etibar Kərimov vəzifəsindən azad edilib.***

”Unikal”ın əldə etdiyi məlumata görə, bununla bağlı Dövlət Statistika Komitəsinin sədri Azər Mursaqulov əmr imzalayıb. Hələlik sözügedən idarənin rəisi vəzifəsinə təyinat olmayıb.

***Seymur Əli***

## Milli Məclis sədrinə yeni köməkçi təyin edilib

***Milli Məclisdə yeni kadr təyinatı olub.***

***”Unikal”ın məlumatına görə, Aydan Tofiq qızı Fərəcova Milli Məclis sədrinin köməkçisi təyin edilib.***

36 yaşlı Aydan Fərəcova dövlət qulluğunun baş müşaviridir.

O, mühəndis iqtisadiyyatı və idarəetmə, menecment, dövlət qulluğunun təşkili və idarə edilməsi sahələri üzrə mütəxəssisdir.

***Anar Kəlbiyev***

## “AS Group”a aid olan “4You” MTK Bakıda yaşıllıqları məhv etdi

***“AS Group” şirkətinə aid olan “4You” Mənzil-Tikinti Kooperativi Bakıda ağacları kəsib.***

“Unikal”ın əldə etdiyi məlumata görə, Nəsimi rayonu, Azər Əliyev küçəsi ilə Tbilisi prospektinin kəsişməsində “4You” MTK-ya məxsus ərazidə tikinti işləri aparılarkən yaşıllıqların məhv edilməsi müəyyən edilib.

Yaşıllığa dəymiş ziyanın məbləği cinayət tərkibi yaratdığından məsələyə hüquqi qiymət verilməsi üçün toplanmış materiallar Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilib.

***Murad İbrahimli***

24_27 IYUl-QARA.qxd 7/2/2026 10:52 PM Page 7





## Leyla Əliyeva Yevlaxda məktəb binasının açılışında iştirak edib

***Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Yevlax şəhərinə səfəri çərçivəsində Səməd Vurğun adına 5 nömrəli tam orta ümumtəhsil məktəbinin yeni binasının açılışında iştirak edib.***

"Unikal" xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev Leyla Əliyevaya məktəbin tarixi, burada yaradılmış şərait və tədris imkanları barədə məlumat verib.

Bildirilib ki, 2024-cü ilin yanvarında köhnə inzibati bina sökülüb və yerində yeni məktəb binasının tikintisinə başlanılıb. Yeni məktəb binası 528 şagird yerlikdir. Burada müasir standartlara uyğun zəruri tədris şəraiti yaradılıb.

Leyla Əliyeva məktəbin kitabxanası, informatika, biologiya və kimya kabinetləri, texnologiya, məktəb hazırlıq qrupu otaqları, yeməkxana və idman zalında yaradılmış şəraitlə yaxından tanış olub.

Yeni məktəb binasında yaradılmış müasir tədris infrastrukturu şagirdlərin keyfiyyətli təhsil almasına, onların bilik və bacarıqlarının inkişafına, həmçinin müəllimlərin fəaliyyətinin daha səmərəli təşkilinə imkan verəcək.

Məktəbin kollektivi ilə görüşən Leyla Əliyeva onlara uğurlar arzulayıb və xatirə şəkilləri çəkdirib.

## Deputat: "Azərbaycan beynəlxalq təhlükəsizliyə töhfə verən dövlətlərdəndir"



***"Azərbaycan Ordusunun sülhməramlı əməliyyatlarına dair hesabat"ın təqdimatı Azərbaycanın bu sahədə qazandığı təcrübəyə həsr olunub. Belə ki, son onilliklər ərzində sülhməramlı fəaliyyəti beynəlxalq münasibətlərin ən mühüm istiqamətlərindən birinə çevrilib, münaqişələrin idarə olunması və postmünaqişə dövründə sabitliyin təmin edilməsində xüsusi əhəmiyyət daşıyıb.***

Bu sözləri Milli Məclisin deputatı, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) İdarə Heyətinin üzvü Gülşən Paşayeva "Azərbaycan Ordusunun sülhməramlı əməliyyatlarına dair hesabat"ın təqdimatı zamanı deyib.

O qeyd edib ki, müasir beynəlxalq mühit mürəkkəb təhlükəsizlik çağırışları ilə xarakterizə olunur. Ənənəvi dövlətlərarası müharibələrlə yanaşı, daxili silahlı qarşıdurmalar, etnik və dini zəmində yaranan münaqişələr, terrorizm, humanitar böhranlar və qeyri-dövlət silahlı qruplarının fəaliyyəti beynəlxalq təhlükəsizlik gündəliyinin əsas mövzularına çevrilib. Belə şəraitdə sülhməramlı əməliyyatlar sabitliyin təmin edilməsinin vacib alətlərindən biridir.

"Bu gün Azərbaycan beynəlxalq təhlükəsizliyin təmin olunmasına töhfə verən dövlətlərdəndir. Ölkəmizin sülhməramlı missiyalarda iştirakı beynəlxalq öhdəliklərin yerinə yetirilməsi ilə yanaşı, Azərbaycan Ordusunun peşəkar səviyyəsinin artırılması, kadr inkişafına və beynəlxalq əməkdaşlığın genişlənməsinə kömək edir", - deyə deputat vurğulayıb.

# "Həkimlərin böyük hissəsi iri şəhərlərdə cəmləşir"

### Müşfiq Məmmədli: "Regionlarda isə xüsusilə pediatr, anestezioloq-reanimatoloq, radioloq, psixiatr, endokrinoloq, nevroloq və cərrah kimi ixtisaslar üzrə çatışmazlıq var"

***Milli Məclisin Səhiyyə komitəsinin üzvü, deputat Müşfiq Məmmədli "Unikal"a müsahibə verib. O, "Psixiatriya yardımı haqqında" qanuna dəyişikliyin əsas mahiyyətindən, regionlardakı həkim çatışmazlığından, regionlarda 65 yaşı tamam olan həkimlərin peşə fəaliyyətini davam etdirməsinin əhəmiyyətindən və icbari tibbi sığorta sistemində hansı dəyişikliklərin olmasından danışıb.***

***-Parlamentin ötən iclasında "Psixiatriya yardımı haqqında" qanuna edilən dəyişiklik ilk oxunuşda qəbul olundu. Bu dəyişiklik bir sıra müzakirələrə yol açmışdı. Qanuna nəzərdə tutulan dəyişikliyin əsas mahiyyəti nədən ibarətdir?***



-"Psixiatriya yardımı haqqında" qanuna dəyişikliklərin əsas mahiyyəti psixiatriya xidmətlərinin daha müasir, hüquqi və rəqəmsal idarəetmə mexanizminə uyğunlaşdırılmasıdır. Layihədə psixiatriya yardımı ilə bağlı məlumatların elektron sağlamlıq kartı vasitəsilə əldə olunması, qanuni nümayəndələrin yazılı müraciəti əsasında məlumat alma imkanları, eləcə də tibbi xarakterli məcburi tədbirlər zamanı stasionar müalicənin digər pasiyentlərdən təcrid olunmuş şəkildə aparılması nəzərdə tutulur. Bu məsələ Milli Məclisin Səhiyyə komitəsində 2-ci oxunuşda, plenar iclasda isə 1-ci oxunuşda müzakirə olunub. Burada əsas məqsəd psixi sağlamlıq sahəsində həm pasiyent hüquqlarının qorunması, həm də təhlükəsizlik, nəzarət və məlumat əlçatanlığının gücləndirilməsidir. Psixiatriya yardımı həssas sahədir, ona görə də dəyişikliklər tətbiq olunarkən insan ləyaqəti, konfidensiallıq və hüquqi təminatlar xüsusi qorunmalıdır.

***-Qeyd etdiyiniz məsələnin komitədə müzakirəsi zamanı regionlarda ciddi həkim çatışmazlığı məsələsinə də toxunuldu. Bu istiqamətdə işlərin aparıldığı və ölkəmizdə kifayət qədər həkim kadrlarının hazırlandığı bildirildi. Hətta, hər 100 min nəfərə düşən həkim sayına görə Azərbaycan bir çox ölkələrlə müqayisədə əlverişli vəziyyətdədir. Həkimlərin böyük hissəsinin iri şəhərlərdə cəmləşdiyini nəzərə alsaq, onların regionlara qaytarılması üçün hansı addımlar atılmalıdır?***

-Doğrudur, Azərbaycanda həkim kadrlarının ümumi sayı bəzi ölkələrlə müqayisədə pis deyil. Amma əsas problem kadrların coğrafi bölgüsüdür. Həkimlərin böyük hissəsi Bakı, Sumqayıt, Gəncə və digər iri şəhərlərdə cəmləşir. Regionlarda isə xüsusilə pediatr, anestezioloq-reanimatoloq, radioloq, psixiatr, endokrinoloq, nevroloq və cərrah kimi ixtisaslar üzrə çatışmazlıq qalır. Bu problemi yalnız inzibati çağırışlarla həll etmək mümkün deyil. Region həkimi üçün ayrıca stimullaşdırıcı paket olmalıdır. Bunlar - yüksək əməkhaqqı əmsalı, xidməti mənzil və ya kirayə dəstəyi, güzəştli ipoteka, uşaqlarının təhsil imkanları, davamlı peşə hazırlığı, rotasiya sistemi və karyera yüksəlişi mexanizmidir. Gənc həkim bilməlidir ki, regionda işləmək onun peşə inkişafını zəifləmir, əksinə, ona əlavə üstünlük verir.

***-Digər müzakirə edilən məsələ pensiya yaşına çatan həkimlərin işinə davam etməsi ilə bağlı idi. Regionlarda 65 yaşı tamam olan həkimlərin peşə fəaliyyətini davam etdirməsinə şəraitin yaradılmasını necə qiymətləndirirsiz?***

-Bunu müsbət və praktik addım kimi qiymətləndirirəm. Xüsusilə regionlarda uzun illər təcrübəsi olan həkimlərin birdən-birə sistemdən kənarlaşdırılması xidmət əlçatanlığına mənfi təsir göstərə bilər. Bir çox rayonlarda həmin həkimlər həm peşəkar təcrübə daşıyıcısıdır, həm də əhali tərəfindən tanınan və etibar edilən mütəxəssislərdir. Amma bu yanaşma avtomatik deyil, fərdi qiymətləndirmə əsasında olmalıdır. Həkimin sağlamlıq vəziyyəti, peşə bacarığı, iş yükünü daşımaq imkanı və fəaliyyət nəticələri nəzərə alınmalıdır. Eyni zamanda yaşlı həkimlərin gənc kadrlarla mentorluq modeli əsasında çalışması daha faydalı olar. Beləliklə, həm xidmət davamlılığı qorunar, həm də bilik və təcrübə yeni nəsil həkimlərə ötürülər.

***-İcbari tibbi sığortadan istifadə vətəndaşlar üçün vacib məsələlərdən biridir. İlin sonunadək icbari tibbi sığorta sisteminin əhatəsində müəyyən dəyişikliklərin olacağı bildirilir. Sizcə, bu sahədə hansı dəyişikliklərə ehtiyac var?***

-İcbari tibbi sığorta son illərin ən mühüm sosial islahatlarından biridir. Xidmətlər Zərfi mərhələli şəkildə genişləndirilir. 2026-cı il üzrə ürək-damar, neyrocərrahiyyə, ümumi cərrahiyyə, uroloji, oftalmoloji, travmatoloji və laborator xidmətlər üzrə genişlənmə planlaşdırıldığı bildirilir. Həmçinin, hipertoniyalı xəstələr üçün ambulator dərman təminatının sığorta hesabına verilməsi istiqamətində gözləntilər var. Mənim fikrimcə, əsas prioritetlər bunlar olmalıdır: ambulator dərman təminatının mərhələli genişləndirilməsi, ailə həkimliyi institutunun gücləndirilməsi, regionlarda ixtisaslı xidmətlərə çıxışın artırılması, növbələrin azaldılması, özəl tibb müəssisələri ilə müqavilə mexanizminin şəffaflaşdırılması və vətəndaşın hara, necə müraciət etməli olduğunu daha aydın bilməsi. İcbari tibbi sığortanın uğuru yalnız xidmətlərin sayının artması ilə ölçülməməlidir. Əsas göstərici vətəndaşın vaxtında, keyfiyyətli və əlavə maliyyə yükü olmadan tibbi xidmət ala bilməsidir.

***Anar Kəlbiyev***

24_27 IYUl-QARA.qxd 7/2/2026 10:52 PM Page 8



# Büdcəni yüz milyonlarla manatdan məhrum edən məmurlar

## Sənədsiz evlər probleminin həlli bu ilin sonunadək mümkün olacaqmı? - İlginc detallar...



***Azərbaycanda uzun illərdir sənədsiz evlərlə bağlı müzakirələr səngimir. Lakin həmin müzakirələr fonunda hələ də sözügedən problemin həlli istiqamətində real addımların atılması müşahidə olunmur.***

Bu günlərdə isə sənədsiz evlər məsələsi yenidən aktuallaşıb: haqqında danışılan evlərlə bağlı amnistiya elan edilməsi təklif olunub. Milli Məclisin deputatı Kamal Cəfərov bildirib ki, ölkədə 500 mindən çox sənədsiz ev var və problemin həlli üçün xüsusi proqram çərçivəsində amnistiya tətbiq olunmalıdır.

Deputatın sözlərinə görə, sənədsiz evlər bazar dəyərindən 20-30 faiz ucuz satılır və banklar tərəfindən girov kimi qəbul edilmir. Bu da vətəndaşların əmlaklarını iqtisadi dövriyyəyə çıxarmasını məhdudlaşdırır.

Bir daha xatırladaq ki, illərdir Azərbaycanda sənədsiz torpaq sahələrinin və evlərin dövlət reyestrinə daxil edilməsi problemi gündəmdən düşmür. Prezident İlham Əliyev məsələ ilə bağlı aidiyyatı qurumlara dəfələrlə göstəriş verib. Lakin aidiyyəti qurumlar hələ də məlum problemin həlli istiqamətində konkret addımlar atmağa tələsmirlər.

Hələ bir neçə il əvvəl Bakı Şəhər İcra Hakimiyyəti paytaxt və paytaxtətrafı ərazilərdə tikilmiş sənədləşdirilməsi mümkün hesab edilən sənədsiz evlərin sayının 700 mindən artıq olduğunu açıqlamışdı.Bundan başqa, 2015-ci il yanvarın 13-də sənədsiz evlərlə bağlı problemin həllinə dair "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanun qüvvəyə minənədək əldə edilən və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlərin siyahısı"nın təsdiq edilməsi barədə ölkə başçısı tərəfindən fərman imzalanmışdı.

İqtisadiyyat Nazirliyi bəyan edib ki, həmin fərmanın verilməsi fərdi yaşayış evləri üzərində hüquqların qeydiyyata alınması sahəsində mühüm mərhələ təşkil edir. Fərmana əsasən, əvvəllər hüquqmüəyyənedici sənəd hesab olunmayan bir sıra sənədlər hüquqların qeydiyyatı üçün əsaslar sırasına daxil edilib: "Belə ki, həmin sənədlər qanunvericilikdə öz əksini tapmadığından müvafiq evlərin sənədləşdirilməsi mümkün olmurdu. Fərmanın verilməsi bu problemə son qoymaqla yaşayış evləri üzərində hüquqların dövlət reyestrində qeydiyyata alınmasına böyük təkan verib. Sonradan fərmana bir neçə dəfə dəyişikliklər edilərək sənədlər siyahısı daha da təkmilləşdirilib. Fərman əsasında 2015-ci il yanvar ayından etibarən 100 mindən artıq ev sənədləşdirilib. Hazırda vətəndaşlar tərəfindən özbaşına inşa edilmiş tikililərin, xüsusilə fərdi yaşayış evlərinin və onların yerləşdiyi torpaq sahələrinin sənədləşdirilməsi aktual məsələlərdəndir. Bununla bağlı İlham Əliyevin tapşırığına əsasən Prezident Administrasiyasının rəhbəri tərəfindən 27 iyun 2019-cu il tarixində Tədbirlər Planı təsdiq edilib. Müvafiq hüquqmüəyyənedici sənədlər olmadan inşa edilmiş tikililər və onların yerləşdiyi torpaq sahələrinin qeydiyyatını nəzərdə tutan Tədbirlər Planına uyğun olaraq yerli ekspert komissiyaları formalaşdırılıb".

Nazirlikdən bildirilmişdi ki, komissiyaların tərkibinə yerli icra hakimiyyəti orqanlarının, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin, Fövqəladə Hallar Nazirliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin və digər qurumların nümayəndələri daxildir. Hazırda həmin komissiyalar tərəfindən şəhər və rayonlar üzrə müvafiq hüquqmüəyyənedici sənədlər olmadan inşa edilmiş tikililər və onların yerləşdiyi torpaq sahələrinin inventarlaşdırılması həyata keçirilir. Lakin 2020-ci ildə pandemiya (COVID-19) səbəbindən inventarlaşdırma işlərinin müvəqqəti olaraq təxirə salındığı açıqlandı.

Pandemiyadan sonrakı dönəmdə sənədsiz evlərlə bağlı məsələ dəfələrlə aktuallaşdı. Son olaraq 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq ili" elan edilməsi ilə bu problemin biryolluq həlli istiqamətində çoxdan gözlənilən konkret addımların atılacağına dair ümidlər artdı. Lakin il yarı olmasına baxmayaraq hələ də daha çox müzakirələrin getdiyinə şahid oluruq. Bununla belə, il sonunadək sözügedən məsələyə dair əməli yeniliklərin baş verəcəyinə dair ümidlər qalır.

Bir daha vurğulayaq ki, Azərbaycanda 500 mindən çox sənədsiz ev var. Hesablamalara görə, onların ümumi dəyəri 50 milyard manatı keçir.

Ən əsası isə odur ki, bir sıra məmurların məsələyə dırnaqarası münasibəti yalnız vətəndaşları çətin vəziyyətdə qoymur, eyni zamanda dövlət büdcəsini hər il yüzmilyonlarla manatdan məhrum edir. Belə ki, sənədsiz evlər torpaq və əmlak vergisinə cəlb olunmur, belədə isə büdcə kifayət qədər böyük məbləğlərlə ifadə olunan potensial gəlirləri itirir. Bir sözlə, sənədsiz evlərin leqallaşdırılması təkcə vətəndaşların mülkiyyət hüquqlarının tanınması deyil, eyni zamanda, kölgə iqtisadiyyatının daraldılması, vergi bazasının genişləndirilməsi və dövlət büdcəsi üçün uzunmüddətli, dayanıqlı gəlir mənbələrinin formalaşdırılması deməkdir.

***Sənan Mirzə***



# Azərbaycanda repetitorluq ləğv ediləcək? - Açıqlama

***"Azərbaycanda repetitorluq haqqında ən çox deyilən fikir budur ki, məktəblərdə yaxşı dərs keçirilsə, repetitorluğa ehtiyac qalmaz".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. O, bu fikrin nə qədər doğru olduğunu müəyyən etmək üçün maksimal bir xəyal etməyi təklif edib: "Təsəvvür edək ki, ölkədə elə bir orta təhsil sistemi qurulub ki, universitetə qəbul imtahanında abituriyentlərin hamısı 650 baldan çox toplayıb. Repetitorluq bitəcək? Xeyr, bitməyəcək. Çünki 650 bal toplayan şagird yenə 690 bal toplayan şagirdlə eyni fakültə uğrunda rəqabət aparacaq. Valideyn yenə düşünəcək ki, mənim övladım digərlərindən geri qalmasın. Deməli, rəqabət davam etdiyi müddətdə üstünlük qazanmaq üçün əlavə hazırlığa tələbat davam edəcək. Bunun ən yaxşı sübutu odur ki, ölkənin ən güclü liseylərində oxuyan şagirdlərin böyük hissəsi repetitor yanına gedir. Problem sadəcə onların məktəbdə zəif oxuması deyil. Məqsəd rəqabətdə üstünlük qazanmaqdır. Deməli, repetitorluğun əsas hərəkətverici qüvvəsi orta təhsil sisteminin zəifliyi yox, rəqabətdir".

İqtisadçı qeyd edib ki, universitetlərdə yerlərin sayı məhduddur, yüksək bal tələb edən ixtisaslara qəbul olmaq istəyənlərin sayı isə daha çoxdur: "Belə şəraitdə hər bir ailə övladına əlavə üstünlük qazandırmağa çalışır. Azərbaycan ailəsi övladı üçün son qəpiyini xərcləməyə hazırdır və bu gün minlərlə ailə məhz bunu edir. Bu prosesin sosial nəticələri var. Gəliri yüksək olan ailələr övladları üçün daha çox resurs ayıra bilir, gəliri aşağı olan ailələr isə eyni rəqabətdə daha məhdud imkanlarla iştirak edir. Nəticədə imkan fərqi müəyyən hallarda təhsil nəticələrinə də təsir göstərir. İqtisadi baxımdan isə repetitorluğa xərclənən vəsait iqtisadiyyatdan çıxmır. Bu pullar əsasən Azərbaycan müəllimlərinin gəlirinə çevrilir. Sonra həmin vəsait yenidən ölkə daxilində dövr edir, taksi xidmətlərinə, mağazalara, restoranlara, müxtəlif xidmət və malların alınmasına xərclənir. Başqa sözlə, repetitorluqda dövr edən vəsait ölkə iqtisadiyyatının daxilində qalır. Odur ki, repetitorluğun əhatə dairəsini azaltmağın yolu onu qadağan etmək deyil. Qadağan edilsə belə bu gizli fərdi hazırlıq, ev dərsləri və ya onlayn məşğələlər formasında yenidən ortaya çıxacaq. Çünki bu bazarı qanun yox, rəqabət yaradır".

E.Əmirov qeyd edib ki, repetitorluğun miqyasını azaltmağın əsas yolu qəbul mərhələsindəki həddindən artıq sərt rəqabəti yumşaltmaqdır: "Universitetə qəbul daha əlçatan olmalıdır. Əsas çətinlik qəbul imtahanında deyil, universitetdə olmalıdır. Tələbə seçdiyi ixtisas üzrə peşəkar səviyyəyə çatana qədər ciddi akademik tələblərlə qarşılaşmalıdır. Qəbul nisbətən asan, məzun olmaq isə həqiqətən çətin olarsa, rəqabətin böyük hissəsi qəbul imtahanından çıxaraq universitet təhsilinə transfer olunacaq. Bu zaman repetitorluğa bugünkü qədər yüksək tələbat təbii şəkildə azalacaq, əvəzində ölkədə diplomlu qeyri-mütəxəssislər yox, peşəkarlar yetişəcək".

24_27 IYUl-QARA.qxd 7/2/2026 10:52 PM Page 9



# Vilayət Eyvazov daxili işlər orqanlarının şəxsi heyətini təbrik etdi



***Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarının şəxsi heyətini Polis Günü münasibətilə təbrik edib.***

"Unikal" xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyindən məlumat verilib.

Təbrikdə deyilir: "Azərbaycan polisinin yaranmasının 108-ci ildönümü münasibətilə sizi təbrik edir, ən xoş diləklərimi çatdırıram.

Ötən müddətdə şərəfli bir inkişaf yolu keçmiş və ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə milli maraqların qorunmasında, qanunçuluğun möhkəmləndirilməsində, asayişin və təhlükəsizliyin təmin edilməsində mühüm xidmətlər göstərmiş polis dövlətin etibarlı dayaqlarından biri olaraq formalaşmışdır.

2003-cü ildən başlayaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində fəaliyyətin bütün istiqamətləri üzrə davamlı surətdə yenilənmiş, təkmilləşmiş, özünü müasir təhlükəsizlik çağırışlarına adekvat cavab verməyə qadir, peşəkar insan resurslarına, qabaqcıl texnologiyalara və güclü maddi-texniki bazaya malik hüquq mühafizə institutu kimi təsdiqləmişdir. Cinayətkarlığa, onun transmilli mütəşəkkil formalarına, kibertəhdidlərə, narkotiklərin qanunsuz dövriyyəsinə, insan alverinə və digər təhlükəli əməllərə qarşı mübarizədə üzərinə düşən vəzifələri bu gün də məsuliyyətlə yerinə yetirir, eyni zamanda işğaldan azad edilmiş ərazilərdə təhlükəsizliyin təmin olunmasına, qanunçuluğun möhkəmləndirilməsinə, bərpa və quruculuq proseslərinə layiqli töhfələr verir.

Əminəm ki, andına həmişə sadiq qalan əməkdaşlarımız bundan sonra da peşəkarlıq, prinsipiallıq və yüksək məsuliyyət nümayiş etdirərək sabitliyin və ictimai təhlükəsizliyin təminatçısı kimi dövlətin və xalqın yüksək etimadını doğruldacaqlar.

Peşə bayramı münasibətilə bütün şəxsi heyətə, veteranlarımıza, xidməti vəzifələri yerinə yetirərkən sağlamlığını itirmiş əməkdaşlarımıza və şəhidlərimizin ailə üzvlərinə möhkəm can sağlığı, xidmətdə yeni-yeni nailiyyətlər və uğurlar arzulayıram!".

# Sahil Babayev: "Qeyri-neft sektoru geniş spektr üzrə sürətlə inkişaf edir"

***Azərbaycan iqtisadiyyatında ciddi transformasiya baş verir.***

Bu sözləri maliyyə naziri Sahil Babayev iyulun 2-də Bakıda keçirilən Qara Dəniz Ticarət və İnkişaf Bankının (QDTİB) biznes-forumunda deyib.

Nazir bildirib ki, ötən ilin yekunlarına görə, iqtisadiyyatın 71 faizini qeyri-neft sektoru təşkil edir: "Neft iqtisadi inkişafın əsas drayverlərindən biri olaraq qalsa da, qeyri-neft sektoru da geniş spektr üzrə sürətlə inkişaf edir. Bu inkişafın davamlılığının təmin olunmasında maliyyə imkanlarının genişləndirilməsi mühüm rol oynayır".

"Bugünkü biznes-forumda biznes, dövlət və bank sektorunun 170-dən çox nümayəndəsi iştirak edir. Tədbirdə Azərbaycanın 60-dan çox özəl şirkətinin, 20-dən çox xarici şirkətin, həmçinin bir sıra dövlət şirkətlərinin nümayəndələri təmsil olunurlar", - deyə Sahil Babayev qeyd edib.

# Azərbaycan BDT-nin Alt Komitəsinin sessiyasında təmsil olunub

Londonda Beynəlxalq Dəniz Təşkilatının mənzil-qərargahında Naviqasiya, Kommunikasiya və Axtarış-Xilasetmə üzrə Alt Komitəsinin 13-cü sessiyası keçirilib.

"Unikal" xəbər verir ki, tədbirdə Azərbaycanı Dövlət Dəniz və Liman Agentliyinin Gəmi Hərəkətinin İdarəedilməsi Mərkəzinin direktoru Məzahir Niftiyev təmsil edib.

Toplantı çərçivəsində gəmi hərəkətinin təşkili, gəmilər üçün hərəkət marşrutları sistemi, Qlobal Dəniz Fəlakəti və Əmniyyəti Rabitə, habelə Gəmilərin Uzaq Məsafədən Tanınması və İzlənilməsi sistemlərinin, axtarış-xilasetmə xidmətlərinin inkişafı, elektron naviqasiya, rəqəmsal texnologiyaların tətbiqi və digər aktual mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd olunub ki, müzakirələr beynəlxalq dəniz üzgüçülüyünün daha da gücləndirilməsi, müasir naviqasiya və rabitə sistemlərinin inkişafı, eləcə də Beynəlxalq Dəniz Təşkilatının normativ-hüquqi bazasının təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

# Qiymətləri qan donduran özəl bağçalarla bağlı böyük şok

## Rəsmən açıqlandı: 80 faizindən çoxunda qidalanma ürəkaçan deyil - Bəs valideynlərdən alınan böyük pullar hara gedir?

***"Özəl bağçaların səksən faizdən çoxunda aparılmış nəzarət tədbirləri zamanı ciddi nöqsanlar aşkar edilib". Bunu Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) sədri Qoşqar Təhməzli Trend-ə və "Xəzər TV"yə birgə müsahibəsində deyib.***

Onun sözlərinə görə, məktəb və bağçalarda qida təhlükəsizliyi sahəsində Elm və Təhsil Nazirliyi ilə sıx əməkdaşlıq edirik. Həm məktəbəqədər təhsil müəssisələrində, həm də ümumi təhsil müəssisələrində tərəfimizdən mütəmadi monitorinqlər aparılır: "Həm məktəblərdə, həm də məktəbəqədər təhsil müəssisələrində tərəfimizdən geniş maarifləndirmə işləri həyata keçirilir. Həmin müəssisələrdə qida təhlükəsizliyi və keyfiyyətə nəzarət üzrə məsul şəxslər müəyyən edilib, onlara müvafiq təlimlər keçirilib və qida təhlükəsizliyi ilə bağlı zəruri təlimatlar verilib. Təəssüflər olsun ki, özəl uşaq bağçalarında qidalanma ilə əlaqədar vəziyyət ürəkaçan deyil. Özəl bağçaların səksən faizdən çoxunda aparılmış nəzarət tədbirləri zamanı ciddi nöqsanlar aşkar edilib. Daha dəqiq desək, yoxlanılan 107 uşaq müəssisəsinin 88-də müxtəlif qanun pozuntuları müəyyən olunub. Aşkar edilmiş nöqsanlar arasında istifadə müddəti bitmiş ərzaq məhsullarından istifadə, qida məhsullarının saxlanma rejiminə düzgün əməl olunmaması, qida məhsullarının saxtalaşdırılması halları, eləcə də kərə yağı adı altında bitki mənşəli yağların uşaqlara təqdim edilməsi kimi ciddi pozuntular var. Bundan əlavə, müəssisələrdə sanitar-gigiyenik və sanitar-texniki vəziyyətlə bağlı da ciddi çatışmazlıqlar qeydə alınıb. Fürsətdən istifadə edərək özəl uşaq bağçalarının rəhbərlərinə də müraciət etmək istəyirik. Uşaqlar bizim gələcəyimizdir və onların sağlam qidalanmasının təmin olunması hər bir müəssisənin və hər bir fərdin məsuliyyətidir. Buna görə də qidaların təhlükəsizliyi, saxlanma şəraiti və qidalanma rejiminin təşkilinə, eləcə də keyfiyyət və təhlükəsizlik tələblərinə ciddi şəkildə əməl olunmalıdır. Əks halda, qanunvericiliyin tələblərinə uyğun olaraq həmin müəssisələr barəsində müvafiq tədbirlər görüləcək".



Qeyd edək ki, Azərbaycanda, xüsusən Bakı, Abşeron və Sumqayıtda fəaliyyət göstərən özəl bağçalarda qiymətlərlə xidmət keyfiyyətinin üst-üstə düşmədiyi barədə illərdir fikirlər səslənir. Fərdi sahibkarlar tərəfindən açılan, bir çoxunun arxasında müəyyən məmurların dayandığı, hətta bəziləri birbaşa həmin məmurların ailə üzvləri tərəfindən idarə edilən bu bağçalar dövlət bağçaları ilə müqayisədə 15-20 dəfə bahadır. Belə ki, özəl bağçalarda ödəniş 250-300 (nadir hallarda 200) manatdan başlayır, 1200-1300 manatadək artır.

Ötən il Azedu.az-ın araşdırması zamanı məlum olmuşdu ki, 250-500 manat qiymət aralığında olan bağçalar əsasən ilkin tədris xidmətləri və məhdud əlavə fəaliyyətlər təklif edir. 500-800 manat olan orta səviyyəli bağçalar isə daha geniş tədris proqramları, əlavə fəaliyyətlər və bəzən psixoloji dəstək xidmətləri təqdim edir. 800-1200 manat məbləğində olan yüksək səviyyəli bağçalar müasir tədris metodları, xarici dil proqramları, psixoloji dəstək və digər əlavə xidmətlər təklif edir. Hər halda kağız üzərində belədir, reallıqda necə olduğunu isə birmənalı söyləmək çətindir.

Hər halda, AQTA rəhbərinin özəl bağçalarda qidalanma ilə bağlı dedikləri bu mənada xeyli düşündürücüdür. Üstəlik, unutmayaq ki, söhbət həmin bağçaların mütləq əksəriyyətindən (azı 80 faizindən) gedir. Belə çıxır ki, hər 10 uşaq bağçasından minimum 8-i qidalanma kimi çox mühüm məsələdə keyfiyyət faktorunu "ya vəlvələdən, ya zəlzələdən" gedir. Özü də nəzərə alanda ki, azyaşlılar üçün qidalanmada nöqsanlar daha ciddi fəsadlara yol aça bilər, onda özəl bağçaların azı 80 faizinin bu sahədə qüsurlara yol verməsi durumun ciddiliyindən xəbər verir.

Digər tərəfdən isə sual yaranır: dövlət bağçaları ilə müqayisədə qiymətləri minimum 15-20 dəfə baha olan özəl bağçalarda yığılan böyük pullar hara gedir, nəyə xərclənir ki, qidalanma kimi zəruri məsələdə keyfiyyət və xidmət çox aşağıdır. Görünən odur ki, bəziləri həmin pulların böyük hissəsini xalis mənfəətə çevirmək istədiklərindən, məsələn, keyfiyyətli qidalanmanı arxa plana keçirirlər.

Belədə isə haqlı olaraq sual yaranır: qidalanma kimi zəruri, taleyüklü məsələdə nöqsanlara yol verənlərin təhsil və tədrislə bağlı xidmət keyfiyyətinə inanmaq, ümid bəsləmək nə dərəcədə doğrudur?

***Toğrul Əliyev***

# Hacıbala Abutalıbov müamması

## Sabiq mer köçdüyü kənddən qovulub, yoxsa müalicə üçün Bakıya gəlib? - Sensasiyalı iddianın pərdəarxası

***Media və sosial şəbəkələrdə Bakı Şəhər İcra Hakimiyyətinin sabiq başçısı Hacıbala Abutalıbov barəsində müxtəlif iddialar yenidən gündəmə gəlib. Sabiq merin uzun müddətdir məskunlaşdığı Qax rayonunun Ağçay kəndindən sakinlər tərəfindən qovulması, həmçinin səhhətində yaranan ciddi problemlərə görə müalicə məqsədilə təcili Bakıya qayıtması barədə məlumatlar yayılıb.***

Məsələyə aydınlıq gətirmək üçün Modern.az sabiq icra başçısının özü ilə əlaqə saxlamağa çalışsa da, telefon zəngləri cavabsız qalıb.

Sayt şayiələrin nə dərəcədə doğru olduğunu dəqiqləşdirmək məqsədilə Qax Rayon İcra Hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Vəfa Heydərova ilə əlaqə saxlayıb. Şöbə müdiri açıqlamasında qovulma iddialarını qətiyyətlə təkzib edərək, bu xəbərləri sabiq dövlət xadiminə qarşı hörmətsizlik kimi qiymətləndirib: "Hacıbala Abutalıbovun Qaxda rəsmi qeydiyyata düşüb-düşməmədiyini bilmirəm. Amma onun rayondan qovulması ilə bağlı yayılan iddialar tamamilə əsassızdır, belə bir söhbət yoxdur və ola da bilməz. Qaxda indiyə qədər elə bir hadisə yaşanmayıb ki, yerli sakinlər kimisə rayondan qovsunlar. Üstəlik, uzun illər dövlətçilikdə mühüm postlar tutmuş, rolu olmuş bir insanın qovulması ümumiyyətlə qəbuledilən iddia deyil. Bu şayiəni kim yayıbsa, yalan deyir. O, adi bir vətəndaş deyil, axı niyə onun haqqında belə səthi və yalan məlumatlar tirajlanır? Mediada bir neçə ay əvvəl də bənzər xəbərlər yayılsa da, heç biri doğruluğunu tapmadı, tapa bilməzdi də".

Şöbə sabiq merin Bakıya səhhəti ilə bağlı getməsi ehtimalına da toxunub: "Onun sağlamlıq vəziyyəti ilə bağlı məlumatım yoxdur. Bunu da doğru məlumat olaraq qəbul etmirəm, sadəcə növbəti iddiadır".

"Unikal" Abutalıbova yaxın mənbələrlə əlaqə saxlayaraq qovulma iddiasının doğru olub-olmadığını aydınlaşdırmağa çalışıb. Aydın olub ki, deyilənlər həqiqəti əks etdirmir. Sabiq merin mütəmadi şəkildə Bakıya gəlib-getdiyini deyən bir mənbəmiz onun əsasən İlisuda yaşamağa davam etdiyini söyləyib. "Hacıbala müəllimin yerli əhali ilə təması yoxdur. Belədə o, kənd sakinləri ilə hansı narazılıq yaşaya bilər? Tamamilə yalan söhbətdir. Üstəlik, Hacıbala müəllimin səhhəti də qaydasındadır. Bəzən müəyyən işlərlə bağlı Bakıya gedir, ancaq sonra da Qaxa qayıdır" deyən qaynağımız sabiq merin günlərini necə keçirdiyinə dair konkret bilgiyə sahib olmadığını da sözlərinə əlavə edib.

"Lakin təqaüdə göndərildikdən sonra yaxın ətrafına elmi fəaliyyət üçün çox darıxdığını, elmi yaradıcılıqla məşğul olmaq istədiyini demişdi. Bilirsiniz ki, o, fizika-riyaziyyat elmləri doktoru, professordur. Bir çox elmi ixtiraların müəllifidir. Lakin mühüm dövlət postları tutmağa başladıqdan sonra elmi fəaliyyətdən uzaq düşmüşdü. Təqaüdə çıxdıqdan sonra həmin fəaliyyətini bərpa etmək niyyəti vardı. Ancaq buna nail olub-olmadığını bilmirəm" deyə qaynağımız vurğulayıb.

Mənbəmiz sabiq merin Bakıya gəliş-gedişinin məhz elmi işlərlə bağlı ola biləcəyini də istisna etməyib. Lakin hər bir halda onun İlisudan qovulması iddiasının doğru olmadığı barədə dediklərini təkrarlayıb.

Başqa bir qaynağımız isə Abutalıbovun səhhətində problem olmadığına dair digər mənbənin dediklərini təsdiqləyib. Lakin həyat yoldaşının müəyyən sağlamlıq problemləri olmasına diqqət çəkib. Hacıbala müəllimin İlisudan qovulması barədə deyilənləri "uydurma" adlandırıb. "Nə Hacıbala müəllim xaraktercə elə adamdır, nə də yerli camaat elə insanlardır ki, arada hansısa hörmətsizlik olsun, belə bir hadisə baş versin" deyə o bildirib.



Xatırladaq ki, Hacıbala Abutalıbov artıq 3 ilə yaxındır ki, Bakını tərk edərək Qax rayonunun Ağçay kəndindəki villasında yaşayır. Keçmiş merin məhz bu kəndi seçməsinin əsas səbəbi həyat yoldaşının əslən Qaxdan olması ilə bağlıdır.

Sözügedən ərazi üzrə məsul şəxs, Qax rayon İcra Hakimiyyətinin İlisu kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Həşim Həsənov isə son iddialarla bağlı ümumiyyətlə məlumatlı olmadığını və heç nə bilmədiyini deyib. Lakin H.Həsənov bir müddət öncəki açıqlamasında isə sabiq merin kənddəki həyat tərzi barədə maraqlı detal paylaşmışdı: "Hacıbala müəllim kənd arasına, camaat içinə çıxmır. Vaxtını əsasən Ağçayda yerləşən villasının qapalı həyətində keçirir".

Hacıbala Abutalıbov Azərbaycanın idarəçilik sistemində ən uzunömürlü rəhbər şəxslərdən biri olub. O, 1995-2000: Bakı şəhəri Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı, 2000-2001-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin müavini, 2001-2018-ci illərdə Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı, 2018-2019-cu illərdə yenidən Baş nazirin müavini işləyib. Elə bu vəzifədən də təqaüdə göndərilib.

***Sənan Mirzə***



# Azərbaycan və Türkiyə arasında əməkdaşlıq müzakirə olunub

***Milli Müdafiə Universitetinin rektoru general-mayor Gündüz Əbdülov Türkiyənin Milli Müdafiə Universitetinin (MMU) rektor müavini general-leytenant Burhan Aktaşın rəhbərlik etdiyi nümayəndə heyəti ilə iki ölkə arasında hərbi təhsil sahəsində əməkdaşlığı müzakirə ediblər.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, general-mayor G.Əbdülov Azərbaycan-Türkiyə münasibətlərinin qarşılıqlı inam, etimad və dostluq münasibətlərinə əsaslandığını qeyd edib. O, Azərbaycanda hərbi təhsil sistemində həyata keçirilən islahatlar və onun müsbət nəticələrindən danışıb, beynəlxalq təcrübə nəzərə alınmaqla tətbiq edilən yeniliklər barədə nümayəndə heyətinə ətraflı məlumat verib.

General-leytenant B.Aktaş səmimi münasibətə və qonaqpərvərliyə görə minnətdarlığını bildirib, uzun müddətdən sonra Azərbaycanda səfərdə olmaqdan məmnunluğunu ifadə edib, 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə təbriklərini çatdırıb. Azərbaycan Ordusunun keçdiyi uğurlu inkişaf yolunun digər ölkələr üçün əsl nümunə olduğunu qeyd edən Türkiyə MMU-nun rektor müavini əməkdaşlığın bundan sonra da bir millət, iki dövlət devizi altında davam etdiriləcəyinə əminliyini bildirib.

Görüşdə hərbi təhsil sahəsində görülən birgə işlərin cari vəziyyəti və inkişaf perspektivləri, hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması, peşəkar kadr heyətinin hazırlanması, eləcə də təcrübə mübadiləsi baxımından qarşılıqlı səfərlərin vacibliyi diqqətə çatdırılıb, maraq doğuran bir sıra mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb.

General-leytenant B.Aktaş xatirə kitabına ürək sözlərini yazdıqdan sonra qarşılıqlı hədiyyələr təqdim olunub, xatirə şəkli çəkdirilib.

# Qlobal maliyyə bazarlarında qərarvermə mexanizmi dəyişir

***"İyulun 1-də Portuqaliyanın Sintra şəhərində keçirilən Avropa Mərkəzi Bankının ənənəvi Mərkəzi Bankçılıq Forumunda FED-in yeni sədri Kevin Uorş bazarlara gələcək dövr üçün olduqca mühüm mesaj verib"***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. Onun sözlərinə görə, Uorş bildirib ki, FED artıq bazarlara gələcək faiz qərarları barədə əvvəlcədən istiqamət vermək siyasətindən uzaqlaşacaq və qərarlarını yalnız iqtisadi göstəricilər əsasında qəbul edəcək:

"Bu pul siyasətinin texniki məsələsi deyil. Bu, qlobal maliyyə bazarlarında qərarvermə mexanizminin dəyişməsidir. Bu o deməkdir ki, son illərdə investorlar FED rəhbərlərinin hər çıxışını diqqətlə izləyərək növbəti faiz qərarını əvvəlcədən proqnozlaşdırmağa çalışırdılar. İndi isə əsas diqqət çıxışlardan inflyasiya, məşğulluq, iqtisadi artım və digər makroiqtisadi göstəricilərə keçir. Bunun nəticəsində bazarlar hər yeni statistik göstəriciyə daha həssas reaksiya verəcək. Volatilliyin artması, istiqraz bazarında faizlərin daha kəskin dəyişməsi, səhm bazarında isə qiymət dalğalanmalarının güclənməsi ehtimalı yüksəlir. Bu dəyişiklik inkişaf etməkdə olan ölkələr, o cümlədən Azərbaycan üçün də əhəmiyyətlidir. ABŞ-də faizlərin yüksək qalması və ya artırılması dolları gücləndirə, beynəlxalq kapitalın bir hissəsini yenidən ABŞ bazarına yönəldə və inkişaf etməkdə olan ölkələrə investisiya axınlarını zəiflədə bilər.

Əslində, son bir neçə ildə müxtəlif çıxış və yazılarımda eyni məqama diqqət çəkirəm. İnvestorlar və biznes subyektləri qərarlarını dünya liderlərinin və ya mərkəzi bank rəhbərlərinin bəyanatlarına deyil, real iqtisadi göstəricilərə əsaslandırmalıdırlar. Çıxışlar bazarlarda ani psixoloji effekt yarada bilər, lakin makroiqtisadi göstəricilər iqtisadiyyatın laborator analizinin nəticələri kimidir. Məhz həmin rəqəmlər gec-tez bazarların həqiqi istiqamətini müəyyənləşdirir. Bu göstəriciləri düzgün oxuyanlar bazarda üstünlük qazanır, düzgün qiymətləndirə bilməyənlər isə itkilərlə üzləşirlər".

24_27 IYUl-QARA.qxd 7/2/2026 10:52 PM Page 11






## Növbəti "Kənddən Şəhərə" həftəsonu yarmarkası təşkil olunacaq

***4-5 iyul tarixlərində Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki "Aqrar Tədarük və Təchizat" ASC-nin təşkilatçılığı ilə paytaxtda növbəti "Kənddən Şəhərə" həftəsonu yarmarkası baş tutacaq.***

"Unikal" xəbər verir ki, yarmarkanın məqsədi yerli fermerlərə dəstək göstərmək, onların məhsullarının satış imkanlarını artırmaq və şəhər sakinlərini sağlam, təbii kənd məhsulları ilə təmin etməkdir.

Tədbirdə 20-ə yaxın regiondan 40-a yaxın fermer iştirak edəcək. Onlar 100-ə yaxın çeşiddə kənd təsərrüfatı və qida məhsulunu birbaşa satışa çıxaracaqlar.

Satışa təqdim olunan məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Məhsulların keyfiyyəti ilə bağlı hər hansı sualı yaranan vətəndaşlar ərazidə fəaliyyət göstərəcək Səyyar Qida Laboratoriyasına yaxınlaşaraq məhsulları analiz etdirə bilərlər.

Yarmarka 2 gün müddətində, saat 09:00-19:00-dək Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi 5 ünvanında ("Gənclik" metro stansiyasının yaxınlığı) fəaliyyət göstərəcək.

Qeyd edək ki, yarmarkaya qoşulan fermerlər piştaxta, tərəzi, soyducu, selofan paket digər zəruri avadanlıqlarla ödənişsiz şəkildə təmin olunurlar.

## Son altı ayda qanunsuz ov edən 62 nəfər saxlanılıb

***Bu ilin 6 ayında Azərbaycanda qanunsuz ov faktları ilə bağlı ümumilikdə 54 900 manat məbləğində cərimə tətbiq olunub.***

Bu barədə "Report"un sorğusuna cavab olaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat katibi İradə İbrahimova bildirib.

Onun sözlərinə görə, hesabat dövründə ölkə ərazisində qanunsuz ov hallarının qarşısının alınması məqsədilə nazirliyin aidiyyəti qurumlarının keçirdiyi nəzarət tədbirləri nəticəsində qanunsuz ov edən 62 nəfər saxlanılıb: "Barələrində qanunamüvafiq tədbirlər görülüb. Eyni zamanda 4 nəfərin ov etmək hüququ müvafiq qaydada məhdudlaşdırılıb".

## Bakının mərkəzində təmirlə əlaqədar iki yol bağlanacaq

***Bakıda daha iki yol sahəsində aparılacaq təmir işləri ilə əlaqədar nəqliyyatın hərəkətinə məhdudiyyətlər tətbiq olunacaq.***

Bu barədə "Unikal"a Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən (AAYDA) məlumat verilib.

Məlumata görə, vətəndaşların rahat və təhlükəsiz hərəkətinin təmin olunması məqsədilə Xan Şuşinski küçəsində (Rəşid Behbudov küçəsindən Vaqif küçəsinədək) 02 iyul 2026-cı il saat 10:00-dan 04 iyul saat 07:00-dək yol nəqliyyat vasitələrinin hərəkəti üçün tam bağlanacaq.

Hüseyn Cavid prospektində (Əbdürrəhim bəy Haqverdiyev küçəsindən Lev Landau küçəsinədək) isə 02 iyul saat 10:00-dan 03 iyul saat 22:00-dək nəqliyyatın hərəkəti qismən məhdudlaşdırılacaq. Daha sonra, 03 iyul saat 22:00-dan 06 iyul saat 07:00-dək sözügedən yol sahəsi tam bağlanacaq.

AAYDA sürücülərdən qeyd olunan tarixlərdə alternativ marşrutlardan istifadə etmələrini çağırıb.

# Oliqarxların bahalı biznesinə böyük təhlükə

## Avtomobil bazarında görünməmiş durğunluq - Hətta maya dəyərinə də sata bilmirlər!



***Azərbaycanda yay mövsümü olsa da, avtomobil bazarında ənənəvi canlanma müşahidə olunmur. Bunu "Azərbaycan Avtomobil Dilerləri Assosiasiyası" (AADA) İctimai Birliyinin İdarə Heyətinin sədri Eyyub Əliyev bildirib.***

Onun sözlərinə görə, satışlar gözlənilən səviyyədə deyil və bazarda hələ də ötən ildən qalan problemlər hiss olunur: "Bazardakı mövcud vəziyyətin əsas səbəblərindən biri ekoloji təmiz nəqliyyat vasitələrinə tətbiq olunan gömrük və vergi güzəştlərinin bu ildən ləğv edilməsi olub. Güzəştlərin müddətinin uzadılmayacağı ötən ilin III rübündən məlum idi. Buna görə paralel idxalla məşğul olan şəxslər və investorların vəsaiti hesabına fəaliyyət göstərən avtomobil satıcıları bazara rekord sayda avtomobil gətiriblər. Həmin dövrdə gətirilən avtomobillər 5-10 gün ərzində satılırdı. İnvestorlar da qısa müddətdə gəlir əldə edə bilirdilər. Lakin bu ilin əvvəlindən satışlar kəskin zəifləyib" (Report).

Assosiasiya sədrinin sözlərinə görə, satışın zəifləməsi bəzi idxalçıların aylarla avtomobil sata bilməməsinə səbəb olub: "Bu da investorlar arasında narahatlıq yaradıb və satıcılar avtomobilləri əvvəlcə maya dəyərinə, daha sonra isə maya dəyərindən aşağı qiymətə satışa çıxarmağa başlayıblar. Nəticədə bazarda "qiymət müharibəsi" gedir. Bir satıcı qiyməti endirir, digəri də məcbur qalaraq eyni addımı atır".

E.Əliyev qeyd edib ki, qiymətlərin demək olar ki, hər gün dəyişməsi alıcıların davranışına da təsir edib: "İnsanlar bu gün 32 min manata təklif olunan avtomobilin bir neçə gün sonra 30 min, hətta 29 min manata satıldığını gördükləri üçün alış qərarını təxirə salıblar. Bu isə bazarda qeyri-müəyyənliyi daha da artırıb. Ötən il idxal edilmiş avtomobillərin sayı real tələbi üstələdiyi üçün bazarda böyük həcmdə satılmamış avtomobil ehtiyatı formalaşıb".

AADA sədri qeyd edib ki, yeni avtomobillərlə bağlı çətinliklərə baxmayaraq, ikinci əl avtomobil bazarında müsbət dinamika müşahidə olunur: "Xüsusilə Cənubi Koreya, Yaponiya və Almaniya istehsalı olan avtomobillərin satışları artmağa başlayıb. Lakin bu, bütün marka və modellərə aid deyil. Lakin bazarda etibar qazanan avtomobillərə maraq xeyli yüksəlib".

"Unikal"ın apardığı araşdırmalardan aydın olub ki, analoji vəziyyət lüks avtomobillərin satıldığı salonlarda da müşahidə olunur. Bir çox salonlar həftələrcə qapılarını açan müştərinin olmadığını bildiriblər.

Qeyd edək ki, Azərbaycanın avtomobil bazarında məmurların önəmli payı var. Bir çox dünyaca məşhur avtomobil istehsalçısının Azərbaycandakı distribütorlarına bəzi indiki və sabiq yüksək vəzifəlilər himayəçilik edirlər. Yaranmış vəziyyətdə onların da bu biznesinin son zamanlar zəifləməkdə olduğunu düşünmək mümkündür. Lüks, elə bu səbəbdən də bahalı avtomobillərin satıldığı salonların xeyli hissəsi müəyyən oliqarxların nəzarətindədir. Belədə onlar üçün də işlərin qaydasında getmədiyi aydınlaşır.

Digər tərəfdən, yaranmış durğunluq yeni deyil. Elə ötən ilin bu vaxtlarında da avtomobil bazarı oxşar durumla üzləşmişdi. İqtisadçılar mövcud vəziyyəti "deflyativ gözlənti effekti" ilə izah edirlər. Alıcılar qiymətlərin daha da düşəcəyinə inanır və alış qərarını təxirə salırlar. Bu gözləmə davranışı isə bazarda tələbin süni şəkildə sıxışdırılmasına, satışların dayanmasına və ümumi dövriyyənin zəifləməsinə səbəb olur. Satıcı isə zərərə işləyərək avtomobili bazar dəyərindən aşağı qiymətə satmağa məcbur qalır" - deyə KİV qeyd edirdi.

Bu ilin fevralında isə media xəbər verirdi ki, bir vaxtlar avtomobillərin çoxluğundan addım atmağa yer olmayan Bakı Gömrük Terminalının dayanacağı indi sözün həqiqi mənasında boş qalıb. Vurğulanırdı ki, ötən ilin sonunadək davam edən böyük "idxal bumu" artıq yerini sükuta verib. Kəskin dəyişikliyin əsas səbəbi olaraq isə 2026-cı ildən etibarən avtomobil idxalına tətbiq edilən gömrük və vergi güzəştləri müddətinin başa çatması göstərilirdi.

O da qeyd olunurdu ki, hazırda nəinki fərdi alıcılar, hətta iri avtomobil dilerləri belə ölkəyə yeni nəqliyyat vasitələri gətirməyə tələsmirlər. İqtisadçılar bildirirlər ki, bu boşluq gözlənilən idi. Çünki ötən ilin son aylarında həm şirkətlər, həm də vətəndaşlar sanki növbəti bir neçə ilin tələbatını qısa müddətdə qarşılamağa çalışıblar.

Və görünən odur ki, avtomobil bazarında durğunluq getdikcə dərinləşir.

İşlər isə yuxarıda da vurğuladığımız kimi, sadəcə fərdi satıcılar üçün yox, iri avtomobil dilerləri üçün də arzuolunmaz gedir. Prosesin nə qədər davam edəcəyini isə zaman göstərəcək. Bu müddətdə sözügedən bazarda pay sahibi olan oliqarxların xeyli pul itirəcəyinə isə şübhə yoxdur.

***M.İbrahimli***

**5.3.15. dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Dini və milli tolerantlıq cəmiyyətin həmrəyliyinə yönəlib

## Hacı İlham Səlimov: "Bu aksiya göstərir ki, müxtəlif dinlərin nümayəndələri arasında əməkdaşlıq yalnız dialoq səviyyəsində deyil, həm də cəmiyyətə fayda verən konkret fəaliyyətlərdə öz əksini tapır"

***Hazırda Məhərrəmlik ayıdır. Bir neçə gün öncə Azərbaycanda Aşura mərasimləri də keçirilib. Artıq bir neçə ildir ki, Aşura mərasimlərində bədənə xəsarət yetirmək, qan çıxarmaq, qurşağadək soyunaraq sinə vurmaq əvəzinə qanvermə aksiyaları təşkil olunur. Bu il də Qan Bankının paytaxtda və bölgələrdəki filiallarında, habelə digər səhiyyə ocaqlarında qanvermə aksiyası keçirildi. Aksiya zamanı toplanan qan hemofiliya və talassemiya, həmçinin digər xəstəliklərdən əziyyət çəkən insanların müalicəsində istifadə olunacaq. Həmin günün əsas diqqətçəkən hadisəsi isə bu aksiyaya müxtəlif din nümayəndələrinin qoşulması oldu. Belə ki, Aşura günü Qafqaz Müsəlmanları İdarəsinin qanvermə aksiyasına dini konfessiyaların rəhbərləri də qoşulublar.***



Bakı və Azərbaycan yepiskopu Aleksiy (Smirnov) jurnalistlərə açıqlamasında deyib ki, Aşura günü ilə bağlı könüllü qanvermə aksiyası ölkəmizdə yaşayan bütün xalqların və dinlərin nümayəndələrinin birliyini göstərən çox gözəl bir ənənədir.

"Hazırda çox mürəkkəb bir dövrdə yaşayırıq. Beynəlxalq arenada yalnız gərginlikləri deyil, həm də insan tələfatına səbəb olan birbaşa hərbi qarşıdurmaları müşahidə edirik. Belə bir vəziyyətdə respublikamız, cəmiyyətimiz və dini təşkilatlarımız müxtəlif millətləri və müxtəlif dinləri birləşdirən unikal birlik nümayiş etdirir. Buna görə də mənim üçün bu gün burada olmaq və bu aksiyada iştirak etmək böyük şərəfdir", - o vurğulayıb.

Göründüyü kimi, hazırkı birlik Azərbaycanda multikulturalizm və həmrəyliyin nümunəsi sayıla bilər.

Azərbaycanda multikulturalizm siyasəti müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri arasında qarşılıqlı hörmət, əməkdaşlıq və humanist dəyərlərin təşviqinə əsaslanır. Bu baxımdan Aşura günü münasibətilə təşkil olunan qanvermə aksiyasına müxtəlif dini konfessiyaların rəhbərlərinin qoşulması ölkədə mövcud olan tolerantlıq və birlik mühitinin parlaq nümunəsidir.

Aşura günü İslam dünyasında xüsusi mənəvi əhəmiyyət daşıyan günlərdən biridir. Azərbaycanda bu günün qeyd olunması zamanı dini mərasimlərlə yanaşı, insanlara fayda verən sosial təşəbbüslər də ön plana çəkilir. Qafqaz Müsəlmanları İdarəsinin təşkil etdiyi qanvermə aksiyası da məhz belə humanitar təşəbbüslərdən biridir. Aksiyanın məqsədi ehtiyacı olan xəstələr üçün qan ehtiyatının artırılması və cəmiyyətə yardım etməkdir.Bu tədbirə müxtəlif dini konfessiyaların rəhbərlərinin qoşulması Azərbaycanın multikultural dəyərlərinin praktik təzahürü kimi qiymətləndirilə bilər. Fərqli dini icmaların nümayəndələri eyni məqsəd naminə bir araya gələrək insan həyatının qorunmasına töhfə vermiş, dinlərarası həmrəyliyin və qarşılıqlı etimadın güclü olduğunu nümayiş etdiriblər. Bu da onu göstərir ki, dini müxtəliflik cəmiyyətdə ayrılıq deyil, əksinə, ümumi humanitar məqsədlər ətrafında birləşmək üçün zəmin yaradır.

Azərbaycanda dövlət səviyyəsində həyata keçirilən multikulturalizm siyasəti müxtəlif dini və etnik qrupların sülh və qarşılıqlı anlaşma şəraitində yaşamasını təmin edir. Aşura günü qanvermə aksiyasında fərqli konfessiyaların nümayəndələrinin iştirakı bu siyasətin uğurlu nəticələrindən biri kimi diqqəti cəlb edir. Belə tədbirlər cəmiyyətdə həmrəylik ruhunu gücləndirir, insanlar arasında humanizm, mərhəmət və sosial məsuliyyət hisslərini təşviq edir.

Nəticə etibarilə, Aşura günü keçirilən qanvermə aksiyası yalnız xeyriyyə tədbiri deyil, həm də Azərbaycanın multikulturalizm modelinin canlı təzahürüdür. Müxtəlif dini konfessiyaların rəhbərlərinin bu təşəbbüsə qoşulması ölkədə mövcud olan tolerantlıq mühitini, dinlərarası dialoqu və ümumbəşəri dəyərlərə sadiqliyi bir daha nümayiş etdirir. Bu cür nümunələr Azərbaycanın multikulturalizm sahəsində qazandığı uğurların və cəmiyyətin birgəyaşayış mədəniyyətinin mühüm göstəricileridir.

Əjdərbəy məscidinin axundu Hacı İlham Səlimov dini konfessiyaların rəhbərlərinin qanvermə aksiyasına qoşulmasını dini konfessiyalar arasında birlik kimi xarakterizə edib. "Unikal" qəzetinə müsahibəsində axund bunu təqdirəlayiq hal adlandırıb. Bildirib ki, bu, Azərbaycanın fərqli din və mədəniyyətlərin sülh və qarşılıqlı anlaşma şəraitində yaşadığı bir ölkə olduğunu bir daha təsdiqləyir.

"Müxtəlif konfessiyaların nümayəndələrinin bu təşəbbüsdə iştirakı ölkədə multikulturalizmin real həyatda necə yaşadığını və cəmiyyətin birləşdirici qüvvəyə çevrildiyini göstərir.Qanvermə aksiyasında iştirak edən dini liderlər insanların həyatının xilası kimi ali bir məqsəd ətrafında birləşərək multikulturalizmin əsas prinsiplərini - həmrəylik, humanizm və qarşılıqlı dəstəyi nümayiş etdirdilər. Fərqli dini inanclara mənsub insanların eyni humanitar məqsəd naminə bir araya gəlməsi Azərbaycanda hökm sürən tolerantlıq mühitini və qarşılıqlı hörməti nümayiş etdirir. Bu aksiya göstərir ki, müxtəlif dinlərin nümayəndələri arasında əməkdaşlıq yalnız dialoq səviyyəsində deyil, həm də cəmiyyətə fayda verən konkret fəaliyyətlərdə öz əksini tapır. Belə nümunələr bir daha təsdiqləyir ki, Azərbaycanda multikulturalizm yalnız nəzəri konsepsiya deyil, gündəlik həyatda özünü göstərən birgəyaşayış və həmrəylik modelidir!".

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Leyla Əliyeva Cümə məscidini ziyarət etdi

***Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Yevlax şəhərinə səfəri çərçivəsində Cümə məscidini ziyarət edib.***

"Unikal" xəbər verir ki, Leyla Əliyeva məsciddə dini ayinlərin icrası və ibadət üçün yaradılmış şəraitlə yaxından tanış olub.

Məscidin imamı bildirib ki, Cümə məscidi 1998-ci ildə istifadəyə verilib. Məsciddə eyni anda 600-ə yaxın şəxs ibadət edə bilər. Azad edilmiş ərazilərdə məscidlərin bərpasının din xadimlərini, ibadət əhlini xüsusilə sevindirdiyini bildirən imam Cümə məscidinin də dövlət qayğısı ilə əhatə olunduğunu diqqətə çatdırıb, ölkə rəhbərliyinə minnətdarlığını ifadə edib.

Ziyarətin sonunda Leyla Əliyevaya "Qurani-Kərim" hədiyyə edilib.

# Türkoloji Qurultayın iştirakçıları Ağdamda olublar

***Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş həftə çərçivəsində keçirilən "Birinci Türkoloji Qurultay: yüz ilin elmi və mədəni irsi" mövzusunda beynəlxalq konqresin iştirakçıları iyulun 1-də Ağdamda "İmarət" Tarix-Memarlıq Muzey Kompleksi ilə tanış olublar.***



"Unikal" xəbər verir ki, qonaqlara kompleksin Qarabağ xanlığının tarixindəki rolu, onun qurucusu Pənahəli xanın və xanlıq dövrünün digər görkəmli şəxsiyyətlərinin irsi, eləcə də bu ərazinin Azərbaycan dövlətçilik tarixindəki xüsusi yeri barədə ətraflı məlumat verilib.

Bildirilib ki, "İmarət" kompleksi təkcə tarixi-memarlıq abidəsi deyil, həm də Qarabağın zəngin mədəni yaddaşını özündə yaşadan mühüm irs nümunəsidir.

O da diqqətə çatdırılıb ki, Ağdam 30 illik işğaldan azad olunandan sonra dövlətimiz tərəfindən kompleksin ərazisində geniş bərpa və yenidənqurma işləri aparılıb. İşğal zamanı ermənilər tərəfindən vandalizmə məruz qalan tarixi abidələrin bərpasında onların orijinallığının qorunmasına xüsusi diqqət yetirilib. Ərazinin abadlaşdırılması eyni zamanda bölgənin müasir mədəni turizm mərkəzinə çevrilməsi məqsədi daşıyır.

İştirakçılar kompleksdə yaradılan şəraitlə tanış olub, Qarabağın işğaldan azad olunmasından sonra aparılan genişmiqyaslı dirçəliş prosesini yüksək qiymətləndiriblər.

24_27 IYUl-QARA.qxd 7/2/2026 10:52 PM Page 13



# Əsgəran-Xocalı-Xankəndi yolunda tikinti işləri son mərhələyə çatıb



***Əsgəran-Xocalı-Xankəndi avtomobil yolunun tikintisinin 86 faizi tamamlanıb.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) Mətbuat xidməti məlumat yayıb.

Qurumun Mətbuat xidmətindən bildirilib ki, 14,1 kilometr uzunluğunda olan və I texniki dərəcəyə uyğun inşa edilən avtomobil yolu Xankəndi, Şuşa və Laçın şəhərlərinə səfər edənlərin daha qısa, rahat və təhlükəsiz şəkildə mənzil başına çatmasını təmin edəcək. Yolun torpaq yatağının eni ərazinin relyefindən asılı olaraq 26,5 metrədək dəyişir.

"Layihə çərçivəsində torpaq işləri tam yekunlaşdırılıb və yeni yol yatağı inşa edilib. Hazırda yol geyiminin əsasının və asfalt-beton örtüyünün laylarının tikintisi davam etdirilir.

Bununla yanaşı, yolboyu layihələndirilən 3 körpünün, 9 düzbucaqlı və 38 dairəvi suötürücünün, 23 ehtiyat keçidinin tikintisi, həmçinin 14 avtobus dayanacağının quraşdırılması işləri tam başa çatdırılıb",-deyə AAYDA-nın Mətbuat xidmətindən qeyd edilib.

Bildirilib ki, hazırda layihə üzrə ümumi icra səviyyəsi 86 faiz təşkil edir.

"Əsgəran-Xocalı-Xankəndi avtomobil yolunun istifadəyə verilməsi bölgədə nəqliyyat əlaqələrinin daha da yaxşılaşdırılmasına, yük və sərnişin daşımalarının səmərəliliyinin artırılmasına, eləcə də kənd təsərrüfatı və turizm potensialının inkişafına mühüm töhfə verəcək",-deyə AAYDA-nın Mətbuat xidmətindən əlavə edilib.

# Bakıda 10 marşrutun hərəkəti alternativ küçələrlə təşkil edilir



***Paytaxtın Xan Şuşinski küçəsinin Rəşid Behbudov küçəsi ilə kəsişməsindən Vaqif prospekti ilə kəsişməsinədək olan hissəsində aidiyyəti qurum tərəfindən aparılan təmir işləri ilə əlaqədar nəqliyyat vasitələrinin hərəkətinə məhdudiyyət tətbiq edilib.***

Bu barədə "Unikal" Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (RİNN) yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinə (AYNA) istinadən xəbər verir.

Məlumata əsasən, məhdudiyyət səbəbindən 3, 4, 17, 20, 85 və 88 nömrəli müntəzəm marşrutların hərəkəti iyulun 4-dək Abbasqulu ağa Bakıxanov və Ceyhun Hacıbəyli küçələri ilə təşkil edilir. İyulun 3-5-də isə Hüseyn Cavid prospektinin Əbdürrəhim bəy Haqverdiyev küçəsi ilə kəsişməsindən Lev Landau küçəsi ilə kəsişməsinədək olan hissəsində təmir işləri həyata keçiriləcək. Bununla əlaqədar 3, 6, 10, 17, 18 və 96 nömrəli marşrutların hərəkəti müvəqqəti olaraq Şəfayət Mehdiyev küçəsi və İnşaatçılar prospekti ilə təşkil ediləcək.

# Ağdaşda yazlıq bitkilərin əkini başa çatıb

***Rayonda yazlıq kənd təsərrüfatı bitkilərinin əkini artıq başa çatmışdır. Mövsüm ərzində rayonda fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələri, fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatlarında 4661,3 hektar sahədə yazlıq bitkilərin əkini aparılmışdır.***

Bu, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 173,7 hektar və ya 3,6 faiz azdır.

Əkilmiş yazlıq əkinlərin 2171,5 hektarını yonca, 1058,0 hektarını tərəvəz, 744,2 hektarını yazlıq dənli və dənli paxlalılar (ondan 25,5 hektarını buğda, 35,1 hektarını vələmir, 463,7 hektarını çəltik), 234,6 hektarını kartof, 220,9 hektarını qarğıdalı, 170,1 hektarını bostan bitkiləri, 62,0 hektarını isə dən üçün günəbaxan bitkiləri təşkil etmişdir.

***Ağdaş Rayon Statistika İdarəsi***

# Leyla Əliyeva "Gənc arıçı" layihəsinin iştirakçısı ilə görüşdü

***Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Yevlaxa səfəri çərçivəsində "Gənc arıçı" layihəsinin iştirakçısı Süleyman Süleymanovun ailəsini ziyarət edib.***



"Unikal" xəbər verir ki, Leyla Əliyeva gənc arıçının ailə üzvləri ilə səmimi söhbət edib, onların yaşayış şəraiti, arıçılıq sahəsindəki fəaliyyəti, əldə etdikləri ilk nəticələr və gələcək planları ilə yaxından maraqlanıb, həmçinin təsərrüfatda pendirin hazırlanması prosesində iştirak edib, ailəyə hədiyyələr təqdim edib.

Görüş zamanı "Gənc arıçı" layihəsi çərçivəsində yaradılmış arıçılıq təsərrüfatı, arı ailələrinin saxlanılması, bal istehsalı və təsərrüfatın gələcək inkişaf imkanları barədə məlumat verilib. Ailə göstərilən diqqət və dəstəyə görə Leyla Əliyevaya minnətdarlığını bildirib, ona arıçılıq məhsulları hədiyyə edib.

Xatırladaq ki, layihə iştirakçısı Süleyman Süleymanov 44 günlük Vətən müharibəsi və antiterror tədbirlərində iştirak edib. O "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.

Qeyd edək ki, 2021-ci ildən IDEA İctimai Birliyinin təşəbbüsü, Azərbaycan Respublikasının Gənclər Fondu, Dövlət Məşğulluq Agentliyi və "ABAD" publik hüquqi şəxsin tərəfdaşlığı ilə həyata keçirilən "Gənc arıçı" layihəsinin məqsədi biomüxtəlifliyin qorunmasına töhfə vermək, arıçılığın ekosahibkarlıq istiqaməti kimi inkişafını təşviq etmək, təbii bal istehsalını dəstəkləmək və gənc ailələrin maddi rifahının yaxşılaşdırılmasına kömək göstərməkdir.

# Bağçalara uşaqların elektron qəbulu başlanır

***7 iyul 2026-cı il saat 11:00-dan etibarən Regional Təhsil İdarələri və Naxçıvan Muxtar Respublikasının tabeliyində olan məktəbəqədər təhsil müəssisələrinə, 9 iyul 2026-cı il saat 11:00-dan etibarən isə Bakı şəhəri üzrə məktəbəqədər təhsil müəssisələrinə qəbul üçün elektron növbələrin yaradılmasına başlanılacaq.***

Bu barədə "Unikal"a MÜTDA-dan məlumat verilib.

Bildirilib ki, 2021 və 2022-ci il təvəllüdlü uşaqlar üçün növbələr saat 11:00-da, 2023, 2024 və 2025-ci il təvəllüdlü uşaqlar üçün isə saat 15:00-da aktiv olacaq.

Bu il ilk dəfə olaraq qəbul prosesi "myGov" platforması üzərindən həyata keçiriləcək. Belə ki, valideynlər (və ya qanuni nümayəndələr) qeyd olunan tarixlərdə "myGov" kabinetinə daxil olaraq "Xidmətlər" bölməsindən Elm və Təhsil Nazirliyinin "Məktəbəqədər təhsil müəssisələrinə qəbul" xidmətini seçməklə elektron müraciət prosesini həyata keçirə bilərlər.



Qeyd edilib ki, qəbul sistemi vasitəsilə bir uşaq üçün maksimum 3 məktəbəqədər təhsil müəssisəsi seçilə bilər. Yaradılmış növbə boş yer olduğu təqdirdə minimum 5 gündən sonra sorğuya çevriləcək. Sorğu yaradıldıqdan sonra valideyn (və ya qanuni nümayəndə) 7 gün ərzində tələb olunan sənədləri müvafiq məktəbəqədər təhsil müəssisəsinə təqdim etməlidir. Əks təqdirdə sorğu silinəcək və növbəli şəkildə başqa uşağın qəbulu aparılacaq.

Ötən tədris ilində yaradılmış növbə və sorğular arxivləşdirilərək valideyn kabinetinə əlavə edilib. Həmin növbə və sorğular 2026-2027-ci tədris ili üzrə qəbul prosesində etibarlı hesab olunmur.

# "Arzum" ləqəbli tiktoker məhkəmə zalında həbs olundu

***Yol qəzasında bir nəfərin ölümü və digərinin xəsarət almasında təqsirləndirilən "Arzum 999" ləqəbli tiktoker İlduzə Hacıyevanın cinayət işi məhkəməsi keçirilib.***




"Unikal"ın məlumatına görə, Xəzər Rayon Məhkəməsində keçirilən prosesdə tiktokerin vəkilləri Hikmət Əliyev və Fərid Həsənov müdafiə çıxışları ediblər.

Tiktoker İlduzə Hacıyeva son söz deyib.

Daha sonra məhkəmə müşavirəyə gedib qayıtdıqdan sonra hökmü elan edib.

Hökmə əsasən, "Arzum" ləqəbli tiktoker 5 il 2 ay müddətinə azadlıqdan məhrum edilib.

Xatırladaq ki, ötən prosesdə dövlət ittihamçısı Nərmin Tahirzadə məhkəməyə tiktokerin 5 il 9 ay müddətinə azadlıqdan məhrum edilməklə məhkəmə zalından həbs olunmasını təklif edib.

Qeyd edək ki, hadisə 2025-ci ilin iyununda paytaxtın Xəzər rayonu, Mərdəkan qəsəbəsində qeydə alınıb. Qəza nəticəsində qarşı tərəfdən 1 nəfər ölüb, digəri isə ağır xəsarət alıb.

İstintaq dövründə bloger Arzum barəsində "başqa yerə getməmək barədə iltizam" qətimkan tədbiri seçilib.

"Arzum" ləqəbli tiktokerə qarşıCinayət Məcəlləsinin 263.2-ci (yol hərəkəti və ya nəqliyyat vasitəsinin istismarı qaydalarının pozulması - ölümlə nəticələndikdə) və 264-cü (Yol nəqliyyat hadisəsi yerindən qaçma) maddələri ittiham irəli sürülüb.

***Orxan Rasifoğlu***

24_27 IYUl-QARA.qxd 7/2/2026 10:52 PM Page 14



# Azərbaycan yaşıl enerjisini Avropa bazarına çıxaracaq

***"Avropa Komissiyası ilə Azərbaycan arasında münasibətlər çox mühüm mərhələyə qədəm qoyub. Avropa İttifaqı uzun müddətdir ki, Azərbaycanın əsas ticarət tərəfdaşıdır".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, 2025-ci ildə Azərbaycanın 43 milyard 830 milyon dollarlıq ticarət dövriyyəsinin 42 faizindən çoxu Avropa İttifaqının payına düşüb: "Azərbaycanın 22 milyard 642 milyon dollarlıq ümumi ixracının isə 69 faizi ittifaq dövlətlərinə yönəlib. Xarici ticarət dövriyyəsinin dörddə biri ittifaqa üzv olan İtaliyanın payına düşür. İllik 25.2 milyard kub metrlik qaz ixracının 12,8 milyard kubmetri Avropaya nəql edilir. Azərbaycanın təbii qaz ixrac etdiyi dövlətlərdən 10 ölkənin Avropa İttifaqının üzvləri olması ölkəmizin Avropanın enerji bazarında mühüm tərəfdaş kimi mövqeyinin güclənməsi anlamına gəlir. Azərbaycan son 5 ildə Avropaya 60 milyard kubmetrə yaxın təbii qaz nəql edilib. Azərbaycan Avropa İttifaqına təbii qaz ixrac edən ölkələr arasında ilk beşlikdə qərarlaşıb. Artıq Azərbaycan qazı yalnız Mərkəzi və Şərqi Avropa ilə yanaşı, Qərbi Avropa bazarına da daxil olmaqdadır.



Yeni mərhələdə Azərbaycan öz yaşıl enerjisini də Avropa bazarına çıxaracaq. Gürcüstan ərazisi və Qara Dənizin dibi ilə Azərbaycanda bərpa olunan mənbələrdən əldə edilən enerji 2027-ci ildən sonra Avropa İttifaqına ixrac edilə bilər. Bu o deməkdir ki, növbəti mərhələdə Azərbaycan yalnız ənənəvi resursları deyil, həmçinin innovativ enerji məhsulları ilə də Avropaya bazarına daxil olacaq. Azərbaycan həmçinin Avropa ilə Mərkəzi Asiya arasında körpü rolunu oynayır. Regional nəqliyyat dəhlizlərinin genişlənməsi və eləcə də Zəngəzur dəhlizinin istifadəyə verilməsi ilə bağlı müzakirələrin intensivləşməsi ölkə üzərindən daşınan yüklərin həcmini artıracaq. Avropa Şərqə Naxçıvan vasitəsi ilə daha asan çıxış imkanları əldə edəcək. Bütövlükdə, son səfər və müzakirə edilən məsələlər Azərbaycanın geosiyasi mövqeyinin daha da gücləndiyini təsdiq edir. Regiondakı yeni düzən əməkdaşlığı üçün mühüm imkanlar yaratmaqdadır".

# 2026-cı ilin məhsulu üçün Balakəndə kənd təsərrüfatı bitkilərinin əkini statistikası

***2026-cı ilin məhsulu üçün rayonda 13179,4 hektar sahədə yazlıq və payızlıq bitkiləri mövcud olmuş və onun 1201,9 hektarını və ya 9,1 faizini payızlıq əkinlər, 11977,5 hektarını və ya 90,9 faizini isə yazlıq əkinlər təşkil etmişdir.***

Rayonda mövcud payızlıq əkinlərin 402,6 hektarını və ya 33,5 faizini dən üçün buğda, 791,3 hektarını və ya 65,8 faizini dən üçün arpa və 8,0 hektarını və ya 0,7 faizini birillik yem bitkiləri təşkil etmişdir.



2026-cı ilin məhsulu üçün 11977,5 hektar sahədə yazlıq əkinlər mövcud olmuşdur ki, ondan 9443,5 hektarını cari ilin yazlıq əkinləri, 2534,0 hektarını isə keçmiş illərin çoxillik otları təşkil etmişdir.

Cari ilin yazlıq əkinlərinin 7701,5 hektarını 81,5 faizini dənli və dənli paxlalılar, 44,0 hektarını və ya 0,5 faizini texniki bitki olan tütün, 289,0 hektarını və ya 3,1 faizini kartof, 667,0 hektarını və ya 7,1 faizini tərəvəz bitkiləri, 153,0 hektarını və ya 1,6 faizini bostan bitkiləri, 589,0 hektarını və ya 6,2 faizini isə yem bitkiləri təşkil edir.

***Balakən Rayon Statistika İdarəsinin rəisi Əsəbəli Alqayev***

# 2026-cı ilin yanvar-mart aylarında Ağdaşda tikintinin əsas göstəriciləri

***2026-cı ilin yanvar-mart aylarında bütün maliyyə mənbələrindən rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün əsas kapitala 33872,2 min manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 10,0 dəfə çox investisiya yönəldilmişdir.***

Ümumi sərmayənin 32227,5 min manatı və ya 95,1 faizi dövlət, 1644,7 min manatı və ya 4,9 faizi isə qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən qoyulmuşdur. Əsas kapitala yönəldilmiş investisiyaların 33602,3 min manatı və ya 99,2 faizi tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə, 269,9 min manatı və ya 0,8 faizi isə maşın, avadanlıqların və digər əsas vəsaitlərin alınmasına sərf olunmuşdur. 2026-cı ilin yanvar-mart aylarında tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsait əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 23,5 dəfə artmışdır.

2026-cı ilin yanvar-mart aylarında tikinti müəssisələri və habelə bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən yerinə yetirilmiş inşaat işlərinin dəyəri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 80,0 faiz artaraq 1196,7 min manat olmuşdur. Yerinə yetirilmiş inşaat işlərinin 54,4 faizini sair tikinti işləri, 42,0 faizini cari təmir, 2,7 faizini əsaslı təmir, 0,9 faizini isə inşa, yenidənqurma və bərpa işləri təşkil etmişdir. Ümumi inşaat işlərinin 8,3 faizini dövlət, 91,7 faizini isə qeyri-dövlət tikinti müəssisələri yerinə yetirmişlər.

**Tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin strukturu**




***Ağdaş Rayon Statistika İdarəsi***

# Bu müəllimlər üçün komissiyalar yaradıldı

***Təkrar sertifikatlaşdırılma prosesində uğur qazanmayan təhsilverənlərlə işin təşkili məqsədilə komissiyalar yaradılıb.***



"Unikal" xəbər verir ki, bu barədə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi məlumat yayıb.

Qeyd olunub ki, bu il keçirilən təhsilverənlərin təkrar sertifikatlaşdırılması prosesində uğur qazanmayan təhsilverənlərlə işin təşkili məqsədilə yaradılan komissiyalar iyulun 31-nə qədər Agentliyin yerli təhsili idarəetmə bölmələrində fəaliyyət göstərəcək. Komissiyaların yaradılmasında məqsəd təkrar sertifikatlaşdırma imtahanında müvafiq keçid balını toplamayan təhsilverənlərlə işin təşkili, onların sosial statuslarının mərhələli şəkildə qiymətləndirilməsi və alternativ iş yeri ilə təmin olunmalarının araşdırılmasından ibarətdir.

# 10 aptekdə nöqsanlar aşkarlandı

***İyun ayında Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi (AEM) ümumilikdə 56 planlı və 12 plandankənar olmaqla 68 aptekdə yoxlama aparıb.***

"Unikal" xəbər verir ki, bu barədə AEM məlumat yayıb. Yoxlamalardan 58-i Bakı şəhərində, 10-u isə respublikanın digər şəhər və rayonlarında yerləşən apteklərdə həyata keçirilib. Keçirilən yoxlamaların 56-sı planlı, 12-si isə plandankənar olub.

Yoxlamaların nəticələrinə əsasən, 10 aptekdə müxtəlif nöqsanlar aşkar edilib.

Aşkarlanmış pozuntularla bağlı saxlanma şəraitinin tələblərinə əməl edilmədiyinə görə 11 adda, ümumilikdə 38 qutu dərman vasitəsi satışdan kənarlaşdırılıb.

İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinə uyğun olaraq 9 inzibati protokol tərtib olunub.

# Göldən meyiti tapılan hakim şəhid qızı imiş



***Xəbər verdiyimiz kimi, ötən gün Goranboyda hakimin meyiti göldən tapılıb.***

"Unikal"ın məlumatına görə, meyiti tapılan 53 yaşlı Sevda Nəbiyeva şəhid qızıdır. Mərhumun atası Nəbiyev Camal Abbasəli oğlu 1991-ci il fevralın 15-də 53 yaşında şəhid olub.

C.Nəbiyev Goranboy rayonunun Baş Qışlaq kəndindən dağ yolu ilə Xanlar (indiki Göygöl) rayonunun Sarısu kəndinə gedərkən, Buzluq kəndinin yaxınlığından keçən aşırımda 40-50 metr məsafədən ermənilər tərəfindən avtomat və digər odlu silahlardan atəşə tutularaq qətlə yetirilib.

***Seymur Əli***

# Qızıl almaq istəyənlərin nəzərinə!

***Qızıl həmişə etibarlı sərmayələrdən hesab olunub. Xüsusən də indi bu sərmayəni əldə etmək istəyənlər üçün əlverişli şərait yaranıb, çünki bazarda qızılın qiyməti ucuzlaşır. Bəs, bu ucuzlaşma alıcıları cəlb edə bilərmi?***

"Unikal" "Xəzər" TV-yə istinadən xəbər verir ki, satıcıların sözlərinə görə, qızıl qiyməti düşüb:

"Bu gün türk qızılının qramı 160 manata qədər azalıb, İtaliya qızılının qiyməti də 280 manatdan 220 manata qədər enib". Həmçinin satıcılar qeyd edirlər ki, qızılın qiyməti yay aylarında artmayacaq, lakin payıza doğru onun qiymətində artım müşahidə oluna bilər.

24_27 IYUl-QARA.qxd 7/2/2026 10:52 PM Page 15



## Kallasın şöbəsinin yüzlərlə işçisi stressdən əziyyət çəkir



***Avropa Xarici Fəaliyyət Xidmətinin (EEAS) yüzlərlə əməkdaşı stress səbəbindən xəstəlik məzuniyyətinə çıxıb.***

"Unikal" xəbər verir ki, bu barədə "Politico" məlumat yayıb.

"Yüzlərlə işçi və ya işçi qüvvəsinin təxminən 8%-i stresslə əlaqəli xəstəliklər səbəbindən məzuniyyətinə çıxıb", - deyə nəşr bildirir.

Nəşr əvvəllər EEAS-ın işçilərin əhval-ruhiyyəsinin aşağı düşməsi və daxili münaqişələrlə üzləşdiyini bildirmişdi.

Qeyd edək ki, Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Kaya Kallasdır.

*Gülayə Mecid*

## "İsrail ABŞ-nin maliyyə yardımından imtina edəcək" - Netanyahu

***Təl-Əviv Vaşinqtonun yardımından imtina edə bilər, çünki İsrail iqtisadiyyatı özünü təmin etmək üçün kifayət qədər güclüdür.***

"Unikal" xəbər verir ki, bunu İsrailin Baş naziri Benyamin Netanyahu deyib.

İsrailin baş naziri əlavə edib ki, Amerika yardımının tədricən dayandırılması prosesinin bu il başlana bilər.

Qeyd edək ki, bundan əvvəl "Politico" qəzeti, ABŞ-nin İrana qarşı son birgə hərbi əməliyyatlarına baxmayaraq, İsrailin getdikcə artan beynəlxalq təcridlə üzləşdiyini bildirib. ABŞ-nin vitse-prezidenti C.D. Vans İsrailin ABŞ-nin xüsusi müttəfiqi statusunun artıq təmin edilmədiyini qəbul etməli olduğunu vurğulayıb.

*Gülayə Mecid*

## Paşinyan Azərbaycanla elektrik xətlərinin çəkilməsindən danışdı

***"Ermənistan Aİ ilə rabitə, enerji və yüksək texnologiyalar sahələrində əməkdaşlığı dərinləşdirməkdə maraqlıdır".***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın Baş naziri Nikol Paşinyan Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə birgə mətbuat konfransında bildirib.

Baş nazir Türkiyə və Azərbaycanla elektrik xətlərinin və birləşdiricilərinin çəkilməsi də daxil olmaqla, enerji əlaqələrinin genişləndirilməsinin vacibliyini vurğulayıb: "Bu, həm enerji təhlükəsizliyinin gücləndirilməsinə, həm də yaşıl keçid məqsədlərinə çatmağa töhfə verə bilər".

*Ağarza Elçinoğlu*

## "Ermənistan Rusiyanın iqtisadi zorakılığı ilə üzləşir" - Lyayen

***"Bilirəm ki, Ermənistan hələ də Rusiyadan ciddi iqtisadi təzyiqlə, hətta demək olar ki, iqtisadi zorakılıqla üzləşir".***

"Unikal" xəbər verir ki, bunu Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen İrəvanda keçirilən mətbuat konfransında deyib.

"Amma əmin olun ki, tərəfdaşlarımıza təzyiq artdıqda, Aİ hərəkətə keçəcək, tədbir görəcək. Hazırda əsasən Rusiya bazarına yönəlmiş məhsulları yönləndirə və onları 450 milyon istehlakçıdan ibarət Aİ vahid bazarına göndərə bilərik. Bu tədbir Ermənistanın təzə kənd təsərrüfatı məhsullarının təxminən 99%-i, eləcə də içki və spirtli içkilərin ixracının 90%-i üçün Avropanın qapılarını açacaq", -deyə o qeyd edib.

*Ağarza Elçinoğlu*

# Alen Simonyan istefa verdi

***Ermənistan parlamentinin spikeri Alen Simonyan parlament mandatından istefa verib.***



"Unikal" xəbər verir ki, bu barədə Ermənistan mətbuatı yazıb. "Mən mandatı götürməyəcəyəm və parlamentə deputat kimi işləməyə gəlməyəcəyəm. Əvvəlcə bir az dincəlmək istəyirəm.

"Heç bir vəzifə əbədi deyil. Mən fəal siyasətçi olmağa davam edəcəyəm, siyasətdən getməyəcəyəm, siyasət səhifəsini bağlamıram", - deyə o açıqlayıb.

Onun sözlərinə görə, o, parlamentin sədri vəzifəsində qalacağını düşünürdü, lakin eyni zamanda idarə heyətinin və partiyanın qərarından narazı deyil. O, hələlik Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla gələcək barədə müzakirələr aparmayıb, lakin siyasətdə özünü yalnız "Vətəndaş Müqaviləsi" partiyası və Paşinyanla işləmək kontekstində təsəvvür etdiyinə əminlik edib.

Xatırladaq ki, Alen Simonyan da yeni parlamentin sədri vəzifəsinə namizəd idi, lakin bu yaxınlarda hakim "Vətəndaş Müqaviləsi" partiyasının idarə heyəti onun namizədliyini deyil, hazırkı sədr müavini Ruben Rubinyanın namizədliyini təsdiqləyib.

Ermənistan parlamentinin spikeri Alen Simonyan ona respublikanın prezidenti vəzifəsi təklif olunubolunmadığı ilə bağlı suala cavab verib. Simonyan bunu cəfəngiyat adlandırıb: "Mən heç vaxt heç kimlə belə söhbət etməmişəm, bunu düzgün hesab etmirəm. Ermənistanın prezidenti var. Bir vətəndaş olaraq, o, mənim ən sevdiyim və hörmət etdiyim prezidentdir və belə bir söhbət sadəcə cəfəngiyatdır. Belə bir şey heç vaxt müzakirə olunmayıb, eşitməmişəm, heç bir vəzifəli şəxslə danışmamışam. Mətbuatdan öyrənmişəm. Prezident, baş nazirin müavini və ya səfir vəzifələri haqqında müzakirə etməmişəm".

*Ağarza Elçinoğlu*

# Xamenei ilə vida mərasimində 100 ölkədən nümayəndə iştirak edəcək

***İran hakimiyyəti cümə günü İranın mərhum Ali Lideri Əli Xamenei ilə vida mərasimində iştirak etmək üçün 100 ölkədən nümayəndənin gəlişini gözləyir.***

"Unikal" xəbər verir ki, bu barədə İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Bəqai bildirib.

"Təxminən 100 ölkədən qonaqlar gözlənilir: siyasətçilər, dövlət başçıları, parlament spikerləri, xarici işlər nazirləri və ya hökumətlərin xüsusi nümayəndələri, eləcə də çox sayda ictimai xadim", - deyə o dövlət televiziyasında açıqlayıb.

Diplomat əlavə edib ki, xarici qonaqlar üçün vida mərasimi cümə günü yerli vaxtla təxminən saat 14:00-da (Bakı vaxtı ilə saat 14:30) başlayacaq.

Xameneinin Tehranda vida mərasimi iyulun 3-də başlayacaq. İyulun 4-dən 5-dək ayətullahın cənazəsi Tehranın ən böyük dini və sosial kompleksi olan Mosallada olacaq.

İyulun 6-da İran paytaxtında əsas küçələrdə dəfn mərasimi keçiriləcək, daha sonra cənazə ölkənin əsas dini mərkəzi olan Qum şəhərinə aparılacaq və iyulun 7-də orada yas mərasimləri keçiriləcək. İyulun 8-də Əli Xameneinin cənazəsi qonşu İraqa göndəriləcək və orada Nəcəf və Kərbəlada yerli şiə müsəlmanları üçün ayrıca vida mərasimləri



təşkil olunacaq. Ayətullahın dəfn mərasimi iyulun 9-da onun doğma şəhəri Məşhəddə keçiriləcək.

*Ağarza Elçinoğlu*

# "Ermənistanda da eyni şey baş verir" - Zaxarova

***Ermənistan Seçki Məcəlləsinə planlaşdırılan dəyişikliklər Ermənistan vətəndaşlarını seçkilərdə iştirak etmək hüququndan məhrum edə bilər.***

"Unikal" xarici mediaya istinadən xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova brifinqdə bildirib.

Diplomat Ermənistan hakimiyyətinin tətbiq etməyi planlaşdırdığı yeni dəyişikliklərə münasibət bildirib. Bu dəyişikliklərə əsasən, vətəndaşlar yalnız səsvermə günündən əvvəlki altı ay ərzində respublikada faktiki yaşamaq şərti ilə səsvermədə və referendumlarda iştirak edə biləcəklər: "Göründüyü kimi, qanunlar bu və ya digər ölkənin vətəndaşlarının hüquqlarını qorumaq üçün nəzərdə tutulub, amma burada tam əksi görünür: Ermənistan pasportu olan insanlar bəzi fundamental hüquqlarından, xüsusən də seçkilərdə iştirak etmək hüququndan məhrumdurlar.



Respublikadakı avropalı mütəxəssislərin fəal işini nəzərə alsaq, istər-istəməz Moldovada 2025-ci il seçki kampaniyası xatırlanır. Həmin vaxt Sandu rejimi Rusiyadakı həmvətənlərinin seçki hüquqlarından istifadə etmələrinin qarşısını almaq üçün məqsədyönlü şəkildə hər şeyi etmişdi. Ermənistanda da eyni şey baş verir: diaspor öz ölkəsinin və xalqının ictimai-siyasi həyatından təcrid olunmuş qalacaq".

Zaxarova qanun layihəsinin informasiya mühitində insanlara necə təqdim olunmasına da diqqət çəkib: "Bir sıra hökumətyönlü media orqanlarında bunun Kremlin mifik hibrid hücumlarına qarşı mübarizə vasitəsi kimi təqdim edildiyini gördük. Onlar guya parlament seçkiləri kontekstində Rusiyadakı erməni diasporunun resurslarından istifadə etməyə çalışırdılar. Bilirsiniz, düşünürəm ki, bu mif sadəcə Ermənistan Milli Təhlükəsizlik Xidmətinin açıq şəkildə təqdim etdiyi rəqəmlərlə darmadağın edilir: onların məlumatına görə, 2025-ci ilin may-iyun aylarında respublikaya cari ilin eyni dövrü ilə müqayisədə daha çox vətəndaş daxil olub. Bu halda kimin əli çirklidir".

*Ağarza Elçinoğlu*

24_27 IYUl-QARA.qxd 7/2/2026 10:52 PM Page 16



# Çempionlar Liqası: "Araz-Naxçıvan" mübarizəyə əsas mərhələdən başlayacaq




***Futzal üzrə UEFA Çempionlar Liqasının ilkin və əsas mərhələsinin püşkatma mərasimi iyulun 8-də keçiriləcək.***

"Unikal" xəbər verir ki, Azərbaycanı turnirdə təmsil edəcək "Araz-Naxçıvan" mübarizəyə birbaşa əsas raunddan başlayacaq.

Ümumilikdə 52 assosiasiyanı təmsil edən 56 klub Çempionlar Liqasının qalibi adı uğrunda yarışacaq. Reytinq cədvəlində ən aşağı pillələrdə qərarlaşan 32 komanda ilkin mərhələdə mübarizəyə qoşulacaq. Onlar hər birində 4 iştirakçı olmaqla 8 qrupa bölünəcək. Mini-turnir formatında keçiriləcək oyunların yekununda yalnız qrup qalibləri əsas mərhələyə yüksələrək B yolunda mübarizəni davam etdirəcək. İlkin mərhələnin görüşləri avqustun 25-30-da təşkil olunacaq.

Son çempion Portuqaliyanın "Sportinq" klubu da daxil olmaqla 24 komanda əsas mərhələdən yarışa başlayacaq. UEFA reytinqində 21-ci pillədə qərarlaşan "Araz-Naxçıvan" B yolunda mübarizə aparacaq. Reqlamentə əsasən, reytinq cədvəlinin 12-15-ci və 20-23-cü pillələrində yer alan 8 klub, həmçinin ilkin mərhələnin 8 qrup qalibi bu yolda çıxış edəcək. Yalnız qrup qalibi 1/8 final mərhələsinə vəsiqə qazanacaq.

B yolunda qrup oyunlarına ev sahibliyi edəcək komandalar da müəyyənləşib. Polşanın "Piast Qlivitse", Serbiyanın "Loznica-Qrad 2018", İtaliyanın "L84 Torino" və Lüksemburqun "Differdanj 03" klublarının müraciəti UEFA tərəfindən müsbət cavablandırılıb.

"Araz-Naxçıvan" püşkatmada ikinci səbətdə yer alacaq. Bu səbəbdən təmsilçimiz ikinci səbətin digər iştirakçıları - "L84 Torino", "Differdanj 03" və Ukraynanın "Atletik Futsal" klubu ilə eyni qrupa düşə bilməyəcək. Beləliklə, Azərbaycan çempionunun yer alacağı qrupun oyunları Polşa və ya Serbiyada keçiriləcək.

Əsas mərhələnin oyunları oktyabrın 27-dən noyabrın 1-dək baş tutacaq.

UEFA İcraiyyə Komitəsinin qərarına əsasən, Ermənistan - Azərbaycan, Kosovo - Bosniya və Herseqovina, Kosovo - Serbiya, Ukrayna - Belarus təmsilçiləri bir-biri ilə qarşılaşa bilməz.

# İngiltərə millisi 60 illik tilsimi qırdı

***ABŞ, Kanada və Meksikanın birgə ev sahibliyi etdiyi futbol üzrə dünya çempionatının 1/16 final mərhələsinin oyunlarından sonra bir sıra maraqlı statistik göstəricilər qeydə alınıb.***

"Unikal" FIFA-nın rəsmi saytına istinadla xəbər verir ki, İngiltərə millisi 60 ildən sonra dünya çempionatının pley-off mərhələsində hesabda geri düşdüyü oyunda qələbə qazanmağı bacarıb. Yığma ötən gecə Konqonu 2:1 hesabı ilə üstələyib. Atlanta şəhərində baş tutan qarşılaşmada ilk qolu Afrika təmsilçisi vurub. Fasilədən sonra oyunun gedişatını dəyişən ingilislər Harri Keynin 75-ci və 86-cı dəqiqələrdə vurduğu qollarla 1/8 finala adlayıb. Komanda sonuncu dəfə buna 1966-cı ildə finalda Almaniya millisini 4:2 hesabı ilə məğlub edərək nail olmuşdu.

Seneqal millisinin hücumçusu İsmaila Sarr isə turnirdə vurduğu 4-cü qolla bir dünya çempionatında afrikalı futbolçular arasında ən yaxşı göstəriciyə şərik çıxıb. O, bununla kamerunlu Rocer Millanın rekordunu təkrarlayıb. Sarr qitənin mundial tarixində ən məhsuldar futbolçusu olan



qanalı Asamoa Gyanın rekordunu yeniləmək üçün cəmi bir qola ehtiyacı var.

Qeyd edək ki, dünya çempionatına iyulun 19-da yekun vurulacaq.

# İsrail əsgərləri tanınmış qolkiperi güllələdi

***Fələstinin "Xadamat Xan Yunis" qapıçısı Səlim Əl-Əşqar İsrail əsgərlərinin açdığı atəş nəticəsində həlak olub.***

"Unikal" xəbər verir ki, bu barədə Fələstin Futbol Federasiyası məlumat yayıb.

Çili futbol liqasında çıxış edən "Club Deportivo Palestino" da 32 yaşlı qapıçının ölümü ilə bağlı açıqlama yayıb.

"32 yaşlı fələstinli qapıçı Əl-Əşqarın faciəli ölümünə dərin hüznlə yas tuturuq. O, İsrail ordusu tərəfindən öldürülüb. Bu cür hadisələrin



davam etməsindən çox kədərlənirik. Ədalət və sülh tələb edirik",- deyə klubun bəyanatında deyilir.

Həmçinin məlum olub ki, cəmi beş ay əvvəl evlənən Əl-Əşqar tezliklə ilk övladını gözləyirmiş.

Qeyd edək ki, Fələstin rəsmi xəbər agentliyi (WAFA) tərəfindən paylaşılan son məlumatlar bölgədəki idmançıların üzləşdiyi acınacaqlı vəziyyəti ortaya qoyur.

Rəsmi məlumatlara görə, 2023-cü ilin oktyabr ayından bəri hücumlarda həlak olan Fələstin idman icması üzvlərinin sayı 1009-a çatıb. Ölənlərdən təxminən 567-si futbolçu olub. İdman dünyası bu əhəmiyyətli itkilərlə bağlı beynəlxalq qurumlardan konkret tədbirlər gözləyir.

***Gülayə Mecid***

# Məşhur şaman dünya çempionunun adını açıqladı



***FIFA 2026 Dünya Çempionatında böyük səs-küy yaradan qanalı şaman Nana Bonsam yenə açıqlamaları ilə diqqət çəkib.***

"Unikal" xarici mətbuata istinadən xəbər verir ki, Nana bu dəfə dünya çempionunun adını açıqlayıb. Onun sözlərinə görə, "Dünya çempionu Kriştianu Ronaldol olacaq".

Bu sensasion iddialardan sonra futbolsevərlərin diqqəti yenidən turnirin həlledici pley-off qarşılaşmalarına yönəlib.

Qeyd edək ki, Nana Bonsam daha əvvəl Qana ilə keçirilən oyunda ingilis hücumçu Harry Kaneyə cadu etdiyini və onun zəif çıxış edəcəyini söyləmişdi. O, sonradan Kane üzərindəki cadunu pozduğunu da bildirmişdi.

# "Kəpəz" Fərid Nəbiyevlə yollarını ayırdı

***"Kəpəz" futbolçu Fərid Nəbiyevlə yollarını ayırıb.***

"Unikal" xəbər verir ki, bu barədə Gəncə təmsilçisi məlumat yayıb. 26 yaşlı yarımmüdafiəçinin müqaviləsinin müddəti başa çatıb. Xatırladaq ki, F.Nəbiyev ötən mövsüm ölkə çempionatı və kubokunda ümumilikdə 34 matça çıxıb və 4 qolla yadda qalıb.

# "Tottenhem" Mateuş Fernandeşi heyətinə qatıb

***"Tottenhem" klubu İngiltərə Premyer Liqasının digər təmsilçisi "Vest Hem"dən Portuqaliya millisinin yarımmüdafiəçisi Mateuş Fernandeşi heyətinə qatıb.***

"Unikal" xəbər verir ki, 21 yaşlı futbolçu ilə müqavilə imzalanıb. "Sportinq" klubunun akademiyasının yetirməsi 2025-ci ilin avqustunda "Vest Hem"ə transfer olunub. O, ötən mövsüm bu komandanın heyətində Premyer Liqada 36 oyuna çıxaraq 3 qol və 4 məhsuldar ötürmə ilə yadda qalıb.

# Tonali "Tonttenhem"ə keçdi

***İtaliya millisinin yarımmüdafiəçisi Sandro Tonali karyerasını "Tottenhem"də davam etdirəcək.***

"Unikal" xəbər verir ki, London təmsilçisi futbolçunun transferi ilə bağlı "Nyukasl"la razılıq əldə edib. Məlumata görə, transferin dəyəri 117 milyon avrodur.

Sandro Tonali 2023-cü ilin yayında "Milan"dan 70 milyon avro qarşılığında "Nyukasl"a keçmişdi. 25 yaşlı yarımmüdafiəçi ötən mövsüm bütün turnirlərdə 53 oyunda meydana çıxıb, 3 qol vurub və 7 məhsuldar ötürmə ilə yadda qalıb.

# ABŞ millisi Bosniya və Herseqovinanı məğlub etdi



***Futbol üzrə dünya çempionatında ABŞ millisi Bosniya və Herseqovina ilə qarşılaşıb.***

"Unikal" xəbər verir ki, San-Fransisko stadionunda keçirilən 1/16 final mərhələsinin matçında ev sahibləri 2:0 hesabı ilə qələbə qazanıblar. Oyunda 45-ci dəqiqədə Folarin Baloqan, 82-ci dəqiqədə isə Malik Tillman fərqləniblər.

ABŞ seçməsi 1/8 finalda Belçika ilə üz-üzə gələcək.

# Belçika 1/8 finalda

***Futbol üzrə dünya çempionatında Belçika millisi Seneqalla qarşılaşıb.***

"Unikal" xəbər verir ki, Sietl stadionunda keçirilən 1/16 final mərhələsinin oyununda Belçika millisi 3:2 hesabı ilə qələbə qazanıb. Seneqal I qrupunda üçüncü, Belçika isə G qrupunda birinci yeri tutub. 1/8 final mərhələsində Belçika millisi ABŞ-Bosniya və Herseqovina görüşünün qalibi ilə qarşılaşacaq.